Xalqın qəzeti!

# Xalq qəzeti

№ 95 (30211) 9 may 2023-cü il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | veb-sayt: www.xalqqazeti.az

**Günün xəbəri**

Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Prezident İlham Əliyevin 8 may 2023-cü il tarixli sərəncamına əsasən 801 məhkum əfv edildi.

## Böyük Qayıdışın Şuşa zirvəsi

### Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolu beynəlxalq magistral səviyyəsində çəkilir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 8-də Şuşaya səfər ediblər.**

Dövlətimizin başçısı və birinci xanım Əhmədbəyli-Füzuli-Şuşa magistral avtomobil yolunun 66-81-ci kilometrliyində görülən işlərlə tanış olublar.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.

(ardı 2-ci səhifədə)

## Qurucu liderin iqtisadi strategiyası



Səhifə ⇨ 5

## İslam Əməkdaşlıq Təşkilatı ölkəmizin haqq işini daim dəstəkləyir



Səhifə ⇨ 3

## Müstəqillik tariximizin ən böyük əfvi





Səhifə ⇨ 17

## Ermənistan ABŞ-ın sülhyaratma missiyasını heçə endirmək əzmindədir



Səhifə ⇨ 4

## Kremlin "müəyyən planları" nədən xəbər verir?

Səhifə ⇨ 17

## Araz vadisində müasir sənaye mərkəzi…



Səhifə ⇨ 15

## Qardaş ölkə seçkilərə hazırlaşır



Səhifə ⇨ 18

## 9 May faşizm üzərində Qələbə günüdür



Səhifə ⇨ 17

## Bu il ölkəmiz Avropaya 12 milyard kubmetr qaz ixrac edəcək



Səhifə ⇨ 15

## Eçmiədzin təxribat yuvası olaraq qalır



Səhifə ⇨ 4

## Separatçıların ölmüş rejimi xortlatmaq cəhdi

Səhifə ⇨ 3

## Rusiya-Ukrayna müharibəsi: hər iki tərəf kritik vəziyyət qarşısında

Səhifə ⇨ 18

# Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolu beynəlxalq magistral səviyyəsində çəkilir



(əvvəli 1-ci səhifədə)

Bildirildi ki, başlanğıcını M6 Hacıqabul-Horadiz-Ağbənd-Zəngəzur dəhlizi magistral avtomobil yolundan götürməklə işğaldan azad edilən Füzuli, Xocavənd, Xocalı və Şuşa rayonlarını birləşdirən 81,7 kilometr uzunluğundakı Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun beynəlxalq magistral normalarına uyğun tikintisi sürətlə davam etdirilir. Yolun 66-81-ci kilometrliyində işlərin 85 faizi başa çatıb. Uzunluğu 15,72 kilometr olan bu hissədə yolun hərəkət sahəsinin eni 10,75 metr, torpaq yatağının eni isə 21,5 metrdir. Dövlətimizin başçısının tapşırığına əsasən, Əhmədbəyli–Füzuli–Şuşa avtomobil yolu Qarabağın inkişaf planı nəzərə alınaraq, dörd hərəkət zolaqlı olmaqla 1b texniki dərəcəyə uyğun inşa edilir.



Qeyd edildi ki, layihəyə əsasən, yolun bu hissəsində 5 viadukun (dərə üzərində körpü), 6 tunelin və bir körpünün tikintisi üzrə əsas işlər yekunlaşıb. Hazırda həm viaduklarda, həm də tunellərdə son tamamlanma işləri icra olunur. Viadukların tikintisi zamanı Azərbaycanda ilk dəfə olaraq aşırım qəliblərin üfüqi sürüşdürülməsi üsulu ilə betonlama işləri yerinə yetirilib. Yolun bu hissəsində suların ötürülməsini təmin etmək məqsədilə müxtəlif ölçülü 15 dairəvi suötürücü boru, 24 düzbucaqlı su keçidi, 4 alt keçid və bir neçə ehtiyat keçid inşa edilib.

Dövlətimizin başçısı və birinci xanım görülən işlərlə bağlı videoçarxa baxdılar.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının ərazisində icra olunan və işğaldan azad edilmiş rayon və kəndlərin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq yol infrastrukturu layihələrindən biri sayılan Əhmədbəyli–Füzuli–Şuşa avtomobil magistralının tikintisinin 2024-cü ildə başa çatdırılması planlaşdırılır.

**AZƏRTAC**

# Şuşaya bol su veriləcək






**Mayın 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Daşaltı kəndində Zarıslıçay nasos stansiyasının açılışında iştirak ediblər.**

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri Zaur Mikayılov dövlətimizin başçısına Şuşa şəhərinin içməli su təchizatı, kanalizasiya və yağış suları sistemləri haqqında məlumat verdi.

Qeyd edək ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Azərbaycan Ordusu tərəfindən 2020-ci il noyabrın 8-də Şuşa şəhəri işğaldan azad edildikdən qısa müddət sonra şəhərin içməli su təminatının bərpasına başlanılıb. Mütəxəssislər tərəfindən şəhərin su mənbələrinin, magistral xətlərin, paylayıcı şəbəkələrin və digər hidrotexniki qurğuların mövcud vəziyyəti araşdırılıb. Məlum olub ki, şəhəri içməli su ilə təmin edən mənbələr və magistral kəmərlər erməni vandallar tərəfindən məqsədli şəkildə dağıdılıb və şəhərə suyun nəqli dayandırılıb.

Təxirəsalınmaz Tədbirlər Proqramına uyğun olaraq, Kiçik Kirs mənbəyinin və Kiçik Kirs-Şuşa magistral su kəmərinin qəzalı hissələri qısa müddətdə təmir olunub və 2020-ci il noyabrın 25-də Şuşa şəhərinə suyun verilişi bərpa edilib. Eyni zamanda, Şuşa şəhərinin digər mənbəyi - Zarıslı sugötürücü qurğusunun, uzunluğu 14,3 kilometr olan Zarıslı-Şuşa magistral su kəmərinin qəzalı hissələrinin bərpasına başlanılıb və 2020-ci il dekabrın 20-də bu mənbədən şəhərə suyun verilməsi təmin edilib.

Şəhərin perspektiv inkişafı nəzərə alınaraq, həmçinin ilin müəyyən dövrlərində Kiçik Kirs və Zarıslı mənbələrində məhsuldarlığın kəskin azalması səbəbindən alternativ su mənbəyinin yaradılması layihəsinin icrasına başlanılıb. Bu məqsədlə Daşaltı kəndinin yaxınlığında, Zarıslı çayının məcrasında tutumu 25 min kubmetr təşkil edən sutoplayıcı anbar, nasos stansiyası və diametri 159 millimetr, uzunluğu 2,9 kilometr olan yeni təzyiqli kəmər inşa edilib, eyni zamanda, diametri 325 millimetr, uzunluğu 9,3 kilometr olan Kiçik Kirs-Şuşa magistral su kəmərinin istismara yararsız 5,2 kilometrlik hissəsi diametri 530-426 millimetr olan borularla əvəzlənib. Görülmüş işlərin nəticəsində 2022-ci ilin dekabrında yeni mənbədən suyun verilməsi ilə şəhərdə yaşayış olan evlər, dövlət qurumlarının inzibati binaları, hotellər, ictimai-iaşə müəssisələri və digər obyektlər fasiləsiz içməli su ilə təmin edilib.

Dövlətimizin başçısı nasos stansiyasını işə saldı.

Məlumat verildi ki, 2040-cı ilə perspektiv inkişaf nəzərə alınmaqla hazırlanan Şuşa şəhərinin su təchizatı, kanalizasiya və yağış suları sisteminin yenidən qurulması layihəsi 25 min nəfərin tələbatının ödənilməsinə hesablanıb. Layihəyə əsasən şəhərin orta gündəlik su tələbatı 105 litr-saniyə təşkil edir. Şəhərə içməli su mövcud Kiçik Kirs, Zarıslı mənbələrindən, həmçinin Zarıslıçay su anbarından veriləcək. Gələcəkdə Zarıslıçay su anbarı genişləndiriləcək və tutumu 25 min kubmetrdən 7,5 milyon kubmetrə çatdırılacaq. Eyni zamanda, məhsuldarlığı sutkada 8 min kubmetr olan içməli sutəmizləyici qurğu inşa olunacaq. Şəhərin su təchizatında dayanıqlılığın təmin olunması məqsədilə ümumi həcmi 6 min kubmetr olan 3 su anbarı layihələndirilib və hazırda onlardan birinin tikintisi davam etdirilir.

Layihəyə əsasən, Şuşa şəhərində 24 kilometr magistral su kəməri, 44 kilometr içməli, 42 kilometr tullantı və 41 kilometr yağış su şəbəkələri inşa olunacaq. Şəhərdə formalaşan tullantı suların tam təmizlənib zərərsizləşdirilməsi məqsədilə məhsuldarlığı sutkada 8 min kubmetr olan qurğu inşa ediləcək. Qurğuda emal edilərək təmizlənən su ekoloji duruma zərər vurmadan Qarqarçaya axıdılacaq. Şuşa şəhərində yaradılan yeni infrastruktur "Ağıllı su" sistemi əsasında idarə olunacaq. Suyun mənbədən götürülməsi, nəqli, anbarların səviyyəsi, hidravlik rejimlər və digər proseslər SCADA sistemləri vasitəsilə onlayn rejimdə tənzimlənəcək. 2023-cü ilin ikinci yarısında məhsuldarlığı sutkada 8 min kubmetr olan içməli sutəmizləyici qurğunun inşası nəzərdə tutulur ki, bu işlərə də 7,4 milyon manat vəsait sərf olunacaq.

**AZƏRTAC**

# Birinci vitse-prezident Mehriban Əliyeva instaqram hesabında Qarabağdan foto və video paylaşıb







**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram hesabında Qarabağdan foto və video paylaşıb.**

**Paylaşımda deyilir: "Viaduklar, tunellər - Şuşa yolunun yeni görkəmi. 08.05.2023".**

# Birinci vitse-prezidentdən Şuşadan paylaşım: "Xarıbülbül axtarışında"









**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram hesabında Şuşadan paylaşım edib.**

**Paylaşımı təqdim edir: "Xarıbülbül axtarışında. Hələ ki, tapmamışam".**

# Ümummilli liderin 100 illik yubileyi münasibətilə humanist aksiya

Müasir Azərbaycan dövlətinin qurucusu, dahi siyasi və dövlət xadimi, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 100 illik yubileyinin ölkəmizin tarixində əlamətdar hadisə olduğunu vurğulayaraq, ulu öndərin əbədiyaşar əziz xatirəsini dərin hörmət və ehtiramla yad edərək, onun bəşəri amallara, qanunçuluq və ədalət ideallarına söykənən zəngin mənəvi irsinə sadiq qalaraq, demokratik hüquqi dövlət quruculuğu istiqamətində fundamental islahatların həyata keçirilməsində Heydər Əliyevin misilsiz xidmətlərini, insan hüquq və azadlıqlarının qorunmasına xüsusi önəm verdiyini xatırlayaraq, humanizm, mərhəmət və insanpərvərlik ənənələrini davam etdirərək, cəzadan azad olunacaq şəxslərin müstəqil dövlətimizin rifahına və cəmiyyətin inkişafına öz töhfəsini verəcəklərinə inanaraq, məhkum olunmuş bir sıra şəxslərin, onların ailə üzvlərinin, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin, insan hüquqlarının müdafiəsi təşkilatlarının Azərbaycan Respublikasının Prezidentinə ünvanlanmış əfv haqqında müraciətlərinə baxaraq, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2023-cü il mayın 8-də "Məhkum edilmiş bir sıra şəxslərin Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyi münasibətilə əfv olunması haqqında" Sərəncam imzalamışdır.

Sərəncama əsasən 801 məhkum əfv olunmuş, onlardan 463 şəxs azadlıqdan məhrum etmə cəzasından, 220 şəxs azadlıqdan məhrum etmə cəzasının çəkilməmiş hissəsinin yarısından, 118 nəfər azadlıqdan məhrum etmə ilə bağlı olmayan digər cəzalardan (azadlığın məhdudlaşdırılması, islah işləri, cərimə cəzaları və cəzaya şərti məhkum edilmiş şəxslər) azad edilmişdir.

Eyni zamanda, bildirilməlidir ki, əfv edilmiş məhkumlardan 14-ü əcnəbidir. Sərəncamla onlardan 12-si cəzadan tam, 2-si isə cəzanın yarı hissəsindən azad olunmuşdur. Müvafiq hökmlərə əsasən cəzadan azad olunduqdan sonra 4 xarici məhkumun Azərbaycan Respublikasının hüdudlarından kənara məcburi çıxarılması nəzərdə tutulur. Digər əcnəbi məhkumlar isə milliyyətcə azərbaycanlı və ya ailə üzvləri Azərbaycan Respublikasının vətəndaşı olduğundan məcburi çıxarılma onlara tətbiq edilməyəcəkdir.

Bununla yanaşı, sərəncamla hüquq müdafiə təşkilatlarının müraciətləri əsasında 10 məhkum da cəzadan azad edilmişdir.

Onlar arasında jurnalist Elçin Məmməd, Vətəndaş və İnkişaf Partiyasının sədri Əli Əliyev də yer almış, həmçinin 5 nəfər Tərtər hadisələri, 3 nəfər isə 2018-ci ildə baş vermiş Gəncə hadisələri ilə əlaqədar məhkum edilmişdir. Həmin şəxslərin cəzalarının əsas hissəsini çəkdikləri, cəza çəkdikləri müddət ərzində davranışları, ailə vəziyyətləri və sağlamlıqları nəzərə alınaraq əfv edilməsi barədə qərar qəbul edilmişdir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 100 illik yubileyi münasibətilə cari ilin yanvar ayından etibarən Azərbaycan Respublikası Prezidenti yanında Əfv Məsələləri Komissiyasının 14 iclası keçirilmiş və həmin iclaslarda 2400-ə yaxın sənəd müzakirə olunmuşdur.

Qeyd edilməlidir ki, bu sərəncam şamil edildiyi şəxslərin dairəsinə görə müstəqil Azərbaycan Respublikasının tarixində qəbul edilmiş ən böyük əfv aktıdır. Müqayisə üçün qeyd olunmalıdır ki, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə qəbul edilmiş 2018-ci il 24 may tarixli Əfv Sərəncamı 634 məhkuma şamil edilmişdi.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 100 illik yubileyi münasibətilə qəbul edilmiş Əfv Sərəncamının may ayının 10-dək icra olunması planlaşdırılır.

**Azərbaycan Respublikası Prezidentinin Mətbuat Xidməti**

# İslam Əməkdaşlıq Təşkilatı ölkəmizin haqq işini daim dəstəkləyir

## Rəsmi Bakı bu təşkilatla münasibətləri prioritet hesab edir

**İstanbulda keçirilən "TEXNOFEST" tədbirində Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı, məmnunluq doğuran çıxışı və xüsusən, Türkiyə dövləti və türk xalqı tərəfindən yüksək səviyyədə qəbul edilməsi barədə söz açan Anadolu telejurnalistlərindən maraqlı bir ifadə eşitdik: "İlham Əliyev təkcə Türkiyə və Türk dünyasında deyil, bütün İslam aləmində sevilən, inanılan və etimad göstərilən liderlərdəndir".**



***Son bir neçə ildə Azərbaycanda İƏT-ə üzv ölkələrin xarici işlər, mədəniyyət, turizm, təhsil, əmək və digər nazirlərinin 10-a yaxın görüşü keçirilmişdir. Biz təşkilata üzv ölkələrlə həm ikitərəfli formatda, həm də beynəlxalq təşkilatlar çərçivəsində fəal əməkdaşlıq edirik. Azərbaycan üzv olduğu beynəlxalq təşkilatlarda müsəlman ölkələrini daim dəstəkləyir. İƏT də öz növbəsində, Azərbaycana böyük dəstək göstərir və ölkəmizin apardığı siyasətə yüksək qiymət verir.***

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Elə həmin günlər sosial şəbəkələrdə "İran Azərbaycana qarşı bu qədər təhdidlər səsləndirirsə, işğalçı Ermənistanı hərtərəfli dəstəkləyirsə, səfirliyimizdə terror törədilirsə, hansı İslami həmrəylikdən danışmaq olar?" – kimi populistik ifadələri də növbəti dəfə eşitmişdik. Hətta İranın təmsil olunduğu hansısa təşkilatın fəaliyyətində bizim də iştirakımızı arzu etməyənlər də tapılır. Bu isə təkcə maksimalistlik və ya siyasi radikallığın yox, həm də İƏT – Azərbaycan münasibətlərindən xəbərsizliyin göstəricisidir.

Həmin ritorikanın müəlliflərinə demək istəyirik ki, Azərbaycan öz dövlət müstəqilliyini bərpa edəndən dərhal sonra İslam Əməkdaşlıq Təşkilatı dövlət müstəqilliyimizi də tanıyıb, ərazi bütövlüyümüzü də, haqq işimizi də. İran isə İslam dünyasında çoxsaylı intriqalar yaratdığına görə İƏT-in fəaliyyətinə heç bir təsir göstərə bilmir. Yəni, Tehranın Bakıya qarşı sərgilədiyi münasibətin İslam Əməkdaşlıq Təşkilatına heç bir dəxli yoxdur.

Yeri gəlmişkən, Azərbaycan Prezidenti İlham Əliyev mayın 4-də Cəbrayılda rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə deyib ki, biz Tehrandan gələn ittihamları rədd edirik, qəbul etmirik və sübutlar tələb edirik. Bu yaxınlarda İranın hansısa əyalət mollası ağzını açıb Azərbaycana qarşı iftiralar uyduranda biz buna fikir vermədik: "Amma sonra, əfsuslar olsun ki, rəsmi şəxslər bizə qarşı əsassız ittihamlar irəli sürməyə başlamışlar. Guya ki, Azərbaycan bu bölgələrə İsraili gətirib. Gözlərini açsınlar, görsünlər. Bunlar İsraili burada harada görüblər?! Burada bir adam da yaşamır. Burada bir bina da yoxdur. Sübutlar var? Yoxdur! Sübutlar yoxdursa, hər kəs gərək dediyi sözlərə görə cavabdehlik daşısın. Biz imkan verə bilmərik ki, bizə qarşı kimsə əsassız iftira uydursun".

Bu məqamda İslam Əməkdaşlıq Təşkilatının Azərbaycana münasibəti barədə yada salmalı olduğumuz çoxsaylı faktlardan üçünü xatırladaq. Məsələn, 2020-ci il sentyabrın 28-də – 44 günlük müharibənin başlanmasının ertəsi günü İƏT "İslam Əməkdaşlığı Təşkilatı Ermənistan silahlı qüvvələrinin Azərbaycan Respublikasına qarşı törətdiyi təxribat və çoxsaylı hücumlarını pisləyir" – deyə konkret və kəsərli bəyanatla çıxış etmişdi. Həmin il oktyabrın 14-də isə İslam Əməkdaşlığı Təşkilatı Gəncə şəhərinin Ermənistan silahlı qüvvələri tərəfindən raket atəşinə məruz qalması ilə bağlı "İƏT Azərbaycan Respublikası ilə həmrəyliyini bir daha təsdiqləyir" başlıqlı bəyanat yaymışdır. Çox keçməmiş həmin qurumun "Baş katiblik Ermənistanın Azərbaycan Respublikasına qarşı hücumlarının dərhal dayandırılmasına çağırır" adlı bəyanatını oxumuşduq.

Bu sənədlərin dünya mediasının manşetinə çıxarıldığı günlərdə Tehrandan İrəvana silah-sursat, yanacaq, ərzaq və digər məhsullarla dolu yük maşınları gedirdi. Üstəlik, İran rəsmiləri bəyan edirdilər ki, Qarabağın Azərbaycana qaytarılması bizim üçün "qırmızı xəttdir".

Azərbaycan Prezidenti İlham Əliyev rəsmi Bakının İslam Əməkdaşlıq Təşkilatına və İƏT-in Azərbaycana münasibəti barədə danışarkən xatırladır ki, ölkəmizin xarici siyasət prioritetlərində müsəlman dövlətləri ilə əməkdaşlıq xüsusi yer tutur. Bu əməkdaşlığın həm ikitərəfli, həm də beynəlxalq təşkilatlar çərçivəsində uğurla aparıldığı hamı tərəfindən yüksək qiymətləndirilir.

Dövlət başçımız İkinci Qarabağ müharibəsi zamanı, həm də postmüharibə dövründə İslam Əməkdaşlıq Təşkilatının Azərbaycanın haqq işini, ərazi bütövlüyünü dəstəkləməsini dəfələrlə yüksək qiymətləndirib. O xatırladır ki, işğal illərində ermənilər tərəfindən tarixi və mədəni abidələrimizin, o cümlədən məscidlərimizin vəhşicəsinə darmadağın edildiyini bilən İƏT rəhbərliyi həmin faktları xalqımıza qarşı mədəni soyqırımı, bütün müsəlman ölkələrinə qarşı təhqir kimi dəyərləndirmişdi.

Bu da faktdır ki, Azərbaycanın təşəbbüsü ilə ərsəyə gələn, BMT tərəfindən də təqdir edilən İslam Əməkdaşlıq Təşkilatı ilə Avropa Şurasının birgə əməkdaşlığının təzahürü olan "Bakı prosesi" mədəniyyətlərarası dialoqa xüsusi töhfələr vermişdir. Dünyanın bəzi regionlarında islamofobiya meyillərinin artdığı bir dövrdə Azərbaycanın İƏT-lə birlikdə həmin tendensiyanın qarşısının alınması istiqamətində birgə fəaliyyətin aparması yüksək səviyyədə təqdir olunur.

Xatırladaq ki, 1969-cu ilin avqust ayında 14 müsəlman ölkəsinin xarici işlər nazirləri Qahirə şəhərində fövqəladə görüş keçirərək, Yaxın Şərqdəki vəziyyətin müzakirəsi ilə əlaqədar İslam dövlətlərinin Zirvə Konfransının keçirilməsi haqqında Səudiyyə Ərəbistanı Krallığının irəli sürdüyü təklifi qəbul etmişlər. Həmin il sentyabrın 25-də Mərakeşin Rabat şəhərində müsəlman ölkələrinin dövlət və hökumət başçılarının konfransında qəbul edilmiş qərara əsasən İslam Konfransı Təşkilatı yaradılmışdır. Sammit zamanı qəbul edilmiş bəyanat görüşdə iştirak edən dövlətlər arasında iqtisadiyyat, elm, mədəniyyət və digər sahələrdə əməkdaşlıq və qarşılıqlı yardım üzrə məşvərətlərin keçirilməsi, öz aralarında yaranacaq problemlərin BMT-nin məqsəd və prinsipləri əsasında həll edilməsi barəsində öhdəlikləri əks etdirir.

28-30 iyun 2011-ci il tarixlərində Qazaxıstanın paytaxtı Astana şəhərində keçirilmiş İKT Xarici İşlər Nazirləri Surasının 38-ci sessiyası zamanı İslam Konfransı Təşkilatının adı İslam Əməkdaşlıq Təşkilatı adı ilə əvəz olunmuşdur. Bu qurum 1975-ci ildən etibarən BMT yanında müşahidəçi statusa malikdir. Eyni zamanda, Cenevrədə və Nyu-Yorkda İƏT-in daimi müşahidəçi missiyaları fəaliyyət göstərir. 2013-cü ilin iyun ayından etibarən isə İƏT-in Avropa İttifaqı yanında daimi müşahidəçi missiyası fəaliyyətə başlamışdır.

Dövlətimiz öz müstəqilliyini bərpa etdikdən sonra keçmiş sovet respublikalarından ilk olaraq İƏT-ə üzv olmaq barədə müraciət etmiş və 1991-ci il dekabrın 8-də İƏT-in Dakarda keçirilmiş dövlət və hökumət başçılarının 5-ci konfransında təşkilata tamhüquqlu üzv qəbul edilmişdir.

1994-cü ilin may ayından etibarən ümummilli lider Heydər Əliyevin müvafiq sərəncamına əsasən, Azərbaycan Respublikasının Səudiyyə Ərəbistanı Krallığındakı səfirinə İKT Baş Katibliyi yanında daimi nümayəndə səlahiyyətləri verildikdən sonra Ər-Riyaddakı səfirliyimiz vasitəsilə mənzil-qərargahı Səudiyyə Ərəbistanı Krallığının Ciddə şəhərində yerləşən İKT Baş Katibliyi və onun müxtəlif qurumları, o cümlədən İslam İnkişaf Bankı ilə səmərəli iş aparılmağa başlanmışdır.

Sonrakı dövrləri əhatə edən bəzi faktları yuxarıda sadaladıq. Ancaq əlavə edilməli məqamlar çoxdur. Məsələn, ekspertlər yazırlar ki, Azərbaycan İslam Əməkdaşlıq Təşkilatının müxtəlif qurumları – İSESCO, İslam İnkişaf Bankı, İslam Konfransı Parlament İttifaqı, İslam Konfransı Gənclər Forumu və s. ilə sıx əməkdaşlıq edir. Bu baxımdan Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın fəaliyyəti xüsusilə təqdirəlayiqdir. Həmin fəaliyyətin nəticəsi olaraq, 23 noyabr 2006-cı ildə İSESCO-nun baş direktoru Əbdüləziz bin Osman Əl-Tuveycri sivilizasiyalararası dialoq daxil olmaqla müxtəlif sahələrdə genişmiqyaslı və fədakar fəaliyyətinə, qayğıya ehtiyacı olan uşaqlara diqqətinə, İslam aləmində görülən işlərə böyük dəstəyinə görə, Azərbaycanın birinci xanımı Mehriban Əliyevaya İSESCO-nun xoşməramlı səfiri adının verilməsi haqqında diplom təqdim etmişdir.

Bundan əlavə, Azərbaycan Respublikasının təşəbbüsü ilə İslam Konfransı Gənclər Forumu (hazırda İslam Əməkdaşlığı Gənclər Forumu adlanır), onun Avrasiya Regional Mərkəzi (İƏGF ARM) və İƏT Əmək Mərkəzi kimi qurumlar yaradılmışdır. İƏGF-nin Avrasiya Regional Mərkəzi 2010-cu ildə təsis edilmiş və Bakı şəhərində fəaliyyət göstərir.

İslam Əməkdaşlığı Gənclər Forumunun mədəniyyətlərarası və sivilizasiyalararası dialoq məsələləri üzrə baş əlaqələndiricisi Leyla Əliyevanın aktiv fəaliyyətini də xüsusi olaraq qeyd etmək lazımdır. Məhz onun təşəbbüsü ilə 2009-cu ildə başlanan "Xocalıya ədalət!" beynəlxalq məlumatlandırma kampaniyası dünyanın 50-dən artıq ölkəsində həyata keçirilməkdədir. Kampaniya nəticəsində dünyanın bir sıra parlamentləri, həmçinin İƏT Xarici İşlər Nazirləri Şurası və İƏT Parlament İttifaqı tərəfindən Xocalı qətliamı "soyqırımı aktı" və "insanlığa qarşı cinayət" kimi tanınmışdır.

Xüsusilə vurğulanmalı məqamlardan biri də odur ki, həm İƏT-in, həm də İSESCO-nun rəsmiləri işğaldan azad edilmiş Azərbaycan ərazilərində olmuş, beynəlxalq tədbirlərdə iştirak etmişlər. Ən başlıcası, İƏT Azərbaycanın regionda yaratdığı yeni reallıqları ilk tanıyan və ona hörmətlə yanaşan beynəlxalq təşkilatdır.

***İ.QAÇAYEV, "Xalq qəzeti"***

# Separatçıların ölmüş rejimi xortlatmaq cəhdi

**Xankəndidə separatçı Ruben Vardanyanın rəhbərliyi ilə həyata keçirilən imzatoplama kampaniyası bu gün başa çatır. Kampaniyanın nəticələrini ictimaiyyətə açıqlayacağını bildirən Vardanyan bəzi qərarlar haqqında da cəmiyyəti məlumatlandıracağını qeyd edib. Hələlik qərarların konkret nələrdən ibarət olacağı məlum olmasa da, bütün hallarda ölkəmizə qarşı yeni təxribatlara start veriləcəyi məlumdur. Əslində, absurd imzatoplama prosesinin özü növbəti oyunbazlığın başlanğıcı hesab edilə bilər.**



### Vardanyan Şeyx Nəsrullah rolunda

Vardanyanın liderliyi ilə həyata keçirilən imzatoplama prosesi ilə bağlı gülünc və təxribat xarakterli məqamlardan biri separatçıların vaxtilə Qarabağda mövcud olan qondarma rejimi yenidən diriltmək, ona həyat vermək istəyi ilə bağlıdır. Kampaniyanın fəallarından olan David Bağıryan iddia edir ki, hər kəs qondarma rejimi, onun müstəqilliyini tanımalı, erməni xalqının "iradəsinə" hörmət etməlidir. Hansı ki, 44 günlük Vətən müharibəsində Azərbaycan Silahlı Qüvvələrinin müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında bu qurama, separatçı rejimi dəfn etdiyi, onu tarixin zibilliyinə göndərdiyi məlumdur. 2020-ci ilin 10 noyabr tarixində imzalanan üçtərəfli Bəyanatda da nəinki Qarabağda mövcud olmuş qanunsuz rejim, ümumiyyətlə, buradakı ermənilərin statusu haqqında heç bir ifadə yer almayıb. Bu faktın özü ermənilərin vaxtilə işğalda saxladıqları ərazilərdə formalaşdırdıqları qondarma "respublika"nın dəfninin siyasi müstəvidə də təsdiqləndiyini göstərir. Belə olan halda Vardanyanın yenidən Qarabağda mövcud olmuş faşist rejimini diriltmək cəhdi separatçıların ölkəmizə qarşı təxribatlara ara vermədiyini, sülh müqaviləsinin imzalanmasına süni yolla mane olmağa çalışdıqlarını göstərir.

Əslində, İrəvanın dəstəyi ilə Vardanyanın Xankəndidə yaratmağa çalışdığı şou, yalançı "xalq etirazı" 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatın kobud şəkildə pozulması deməkdir. Bu isə onu göstərir ki, Ermənistan nəinki sülh müqaviləsinin imzalanmasında maraqlı deyil, ümumiyyətlə, Azərbaycanla Ermənistan arasında ilkin razılaşma sənədi sayılan üçtərəfli Bəyanatın şərtlərini belə yerinə yetirmək istəmir.

### David Bağıryan "əsir erməniləri" Azərbaycan əleyhinə aksiyaya səsləyir

Xankəndidəki proseslər fonunda diqqətçəkən məqamlardan biri də David Bağıryanın erməniləri Azərbaycan əleyhinə aksiyaya səsləməsidir. Bağıryan bildirib ki, hər bir erməni onun səsinə səs verməli, Azərbaycan əleyhinə aksiyada iştirak etməklə, öz mövqeyini ortaya qoymalıdır. Bağıryanın bəyanatlarından məlum olur ki, o, anti-Azərbaycan mitinqinin mümkün qədər kütləvi olmasına çalışır. Məqsəd sosial sifariş daşımayan, bir ovuc separatçının şəxsi iradəsini əks etdirən aksiyaya "ümumerməni hərəkatı" donu geyindirməkdir.

Təbii ki, aksiyanın təşəbbüskarı kimi Vardanyan qələmə verilsə də, əslində, bu təşəbbüsün İrəvan tərəfindən irəli sürüldüyü və dəstəkləndiyi ortadadır. Bu isə o deməkdir ki, rəsmi İrəvan anti-Azərbaycan aksiyasının kütləviliyini təmin etmək naminə bütün imkanlardan, eyni zamanda, inzibati rıçaqlardan istifadə edəcək, mənəvi-psixoloji baxımdan əsirliyində saxladığı Xankəndi ermənilərinə ciddi təzyiq göstərəcək. Başqa sözlə desək, aksiyaya ermənilər inzibati məcburetmə fonunda cəlb ediləcək ki, bu da sözügedən aksiyanın heç də "xalqın iradəsi", "ümumerməni hərəkatı" anlayışları ilə bir araya sığmadığını göstərir.

### "Dəmir yumruq" üçün darıxan başlar

David Bağıryan irəli sürdükləri tələblərin tanınması üçün 7 gün vaxt verəcəklərini, nəticə hasil olmadığı təqdirdə "bildikləri kimi" hərəkət edəcəklərini vurğulayıb. Bağıryanın irəli sürdüyü tələbin qondarma Qarabağ rejimini diriltmək olduğunu nəzərə alsaq, bu tələbin heç vaxt müzakirə predmeti olmayacağı birmənalıdır.

Bağıryanın 7 gündən sonra nə edəcəyinə gəlincə, əslində, bu da məlumdur. Separatçıların və onların mənəvi atası Vardanyan 7 günün sonunda yenə anti-Azərbaycan bəyanatları səsləndirəcək, yağa bilmədikləri üçün sadəcə guruldamaqda davam edəcəklər. Bu mənada Vardanyan və Bağıryanın təhdidlərinin heç bir əhəmiyyət kəsb etmədiyi ortadadır. Ancaq baş verənlər fonunda müşahidə edilən bir həqiqət var ki, bu da separatçıların başlarının "Dəmir yumruq" üçün darıxmasıdır. Və ola bilsin ki, separatçıların bütün tələblərinə "yox" deyən rəsmi Bakı hansısa məqamda onların bu istəyini nəzərə alsın.

***Seymur ƏLİYEV***

# "Ermənistanı xoş məram nümayiş etdirməyə çağırırıq"

**Bunu Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramov dünən Vilnüsdə litvalı həmkarı Qabrielius Landsberqis ilə görüşdən sonra keçirilən brifinqdə deyib.**

Litvada işgüzar səfərdə olan Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramov Ermənistan rəhbərliyini Bakı-İrəvan arasında münasibətlərin normallaşdırılması ilə bağlı müzakirələrdə daha çox səy göstərməyə çağırıb. C.Bayramov litvalı həmkarı Qabrielius Landsberqislə görüşdən sonra keçirilən birgə brifinqdə qeyd edib: "Həmkarımı münaqişədən sonra regionda yaranmış vəziyyət barədə məlumatlandırdım, həmçinin Azərbaycanın sülh gündəliyinin təkmilləşdirilməsi istiqamətində göstərdiyi səylərdən, o cümlədən Ermənistanla sülh sazişi layihəsi üzrə danışıqların son raundundan danışdım. İşğaldan azad edilmiş ərazilərdə aparılan yenidənqurma işləri, kommunikasiyaların açılması – bütün bu məsələlər də gündəmdədir".






Həmçinin Azərbaycanın XİN başçısı sözlərinə onu da əlavə edib ki, münaqişədən sonrakı dövrdə Ermənistan və Azərbaycan arasında münasibətlərin normallaşdırılması üzrə səylərdə zəif dinamikanın müşahidə olunmasına baxmayaraq, bütün sahələrdə, o cümlədən ikitərəfli münasibətlərin əsaslarını müəyyən edən sülh müqaviləsi layihəsi, dövlət sərhədlərinin delimitasiyası, nəqliyyat-kommunikasiya əlaqələrinin bərpası üzrə əldə olunmuş tərəqqi hələ ümidlərimizi doğrultmayıb.

"Biz Ermənistan tərəfini xoşməramlılıq nümayiş etdirməyə və ölkələr arasında münasibətlərin normallaşdırılması ilə bağlı müzakirələrdə daha çox səy göstərməyə çağırırıq", – deyən C.Bayramov ərazi bütövlüyü və suverenlik məsələlərinə də toxunub: "Hesab edirik ki, iki ölkə arasında münasibətlərin normallaşdırılmasının ən yaxşı yolu ərazi bütövlüyünün qarşılıqlı tanınmasına və bir-birinin suverenliyinə hörmətə əsaslanır. Azərbaycanın bu məsələdə mövqeyi aydın, prinsipial və dəyişməzdir".

***"Xalq qəzeti"***

# Ermənistan ABŞ-ın sülhyaratma missiyasını heçə endirmək əzmindədir

## *İrəvan siyasiləri Moskvaya üz tutmaqla Cənubi Qafqazda Ağ ev – Kreml ziddiyyəti yaratmaq istəyirlər*

**Azərbaycanın və Ermənistanın xarici işlər nazirləri arasında Vaşinqtonda dörd gün davam etmiş danışıqlar marafonu ilə bağlı müxtəlif fikirlər var. Mövcud istiqamətdə bir sıra müsbət impulslar hər iki ölkə cəmiyyətinə gəlib çatsa da, konkret hansı məsələlərdə irəliləyişin əldə olunduğu məlum deyil. Əlbəttə, açıqlanması hələlik məqbul görünməyən cəhətlərin olması təbiidir. Hər bir halda, əminliklə söyləmək mümkündür ki, Arlinqton raundu özlüyündə Birləşmiş Ştatların sülh nizamlanmasında mühüm halqanı təşkil etdi. Ən əsası isə Vaşinqtonun prosesə yanaşmasında səmimiyyət faktoru nəzərə çarpır ki, bu da son dərəcə vacibdir. Bəli, Ağ ev Cənubi Qafqaz regionu ilə bağlı özünün qlobal maraqları kontekstində, kifayət qədər, səmimi görünür. Dördgünlük danışıqlar üçün evsahibliyi də bundan qaynaqlanır. Azərbaycan cəmiyyəti məsələyə dəyər verir və bu səbəbdən də nikbindir.**



ABŞ Dövlət Departamentinin rəhbəri Antoni Blinkenin “çətin məsələlərin həllində mühüm irəliləyiş əldə edilib” kimi açıqlaması var. Əgər, irəliləyiş varsa, onun detalları ilə Bakı razıdır və sözündən geri dönən deyil. Bəs, Ermənistan necə, geri çəkilməyəcək ki? Bu sual, ritorik anlamda, görüş başa çatdıqdan dərhal sonra gündəmə gəldi və şübhələrin özünü doğrultması üçün çox gözləməyə ehtiyac qalmadı.

Hazırda Ermənistanın ictimai rəyindəki diskussiyalar da sualı aktuallaşdırmaqdadır. Belə görünür ki, İrəvanın siyasi dairələri Vaşinqton prosesinin əhəmiyyətini heçə endirməyə başlayıblar. Ehtimal etmək mümkündür ki, bu taktika danışıqlarda əldə edilmiş kövrək nəticələrlə razılaşmamaq üçün vasitədir. Hər halda, indiyədək keçilmiş yol var. Yəni, 44 günlük müharibədən sonra Ermənistanın vacib məqamlarda geri durması ilə bağlı yaritmaz təcrübə hər kəsə yaxşı məlumdur.

***

İlk baxışdan düşünülə bilər ki, Vaşinqton danışıqlarının əhəmiyyətinə kölgə salmaq cəhdləri baş nazir Nikol Paşinyandan narazı kəsimin hakimiyyətin hər addımına qarşı çıxmaq əzmidir. Ancaq problemin qoyuluşu fərqli ovqat yaradır. Məlum olur ki, söhbət, heç də anti-Paşinyan ritorikasına əsaslanmayıb.

Məsələn, erməni siyasilər bildirirlər ki, Qərbyönümlü ekspertlərin yaratdıqları yüksək gözləntilərin əksinə olaraq, münaqişə tərəfləri intensiv danışıqlardan geri çəkildilər. Onların fikirlərinə görə, Blinkenin bəlağətli bəyanatı Ermənistanın və Azərbaycanın diplomatik komandalarının danışıq konstruktivizmi ilə bağlı ümumi ifadələrlə məhdudlaşdı. Sanki, dövlət katibinin “əhəmiyyətli irəliləyiş” ifadəsi sabun köpüyü imiş.

Bəli, İrəvan dairələri ən həssas məsələlərdə əsas fikir ayrılıqlarının qaldığını vurğulamağa fokuslanıblar. Baxmayaraq ki, Blinken sülh sazişinin uzaq olmadığını bildirmişdi. Bu yerdə onu da xatırladaq ki, Ermənistan XİN Vaşinqton danışıqlarında müzakirəyə çıxarılmış “Sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında” saziş layihəsi üzrə müəyyən ortaq nöqtələrin mövcudluğunu bildirsə də, bəzi əsas məsələlərdə fərqli düşüncələrin qaldığını daha çox qabartmaqdadır.

Əlbəttə, İrəvanın əsas xarici siyasət idarəsinin mesajında təfərrüatlar dəqiq göstərilmir. Ancaq məlumdur ki, problemlərdən biri Rusiya sülhməramlılarının himayəsindəki Qarabağ ermənilərinin hüquq və təhlükəsizliyinə dair məsələlərdir. Azərbaycan sülh sazişində Qarabağ erməniləri ilə bağlı hər hansı müddəanın yer almasına prinsipial şəkildə razı deyil. İrəvan isə daxili ictimai rəyə Qarabağ avantürasının davamlılığını sırımağa çalışır. Yeri gəlmişkən, Ermənistanın baş naziri Nikol Paşinyan Praqaya səfəri zamanı “Azadlıq” radiosuna verdiyi müsahibədə də məsələyə toxunub: “Əsas fikir ayrılıqları Dağlıq Qarabağa aiddir, lakin təkcə bu deyil”.

Paşinyan həmin müsahibəsində, eyni zamanda, bildirib ki, hər bir razılaşmada, hətta, birmənalı şəkildə yazılmış müqavilədə də şərhlər yaranır. “Sual olunur: Bu yozumlar necə həll edilməlidir? Bu, çox vacib məsələdir. Axı sülh müqaviləsi imzalanandan sonra sənədin icra mexanizmi var. İstər beynəlxalq, istərsə də yerli mexanizmlər nəzərə alınmalıdır. Xüsusən də qoşunların çıxarılması (Ermənistan və Azərbaycan sərhədindən - red.) ilə bağlı bizim demilitarizasiya zonamız olmalı deyilmi?”, – deyən erməni baş nazir Qarabağ ermənilərinin hüquqlarına dair məsələnin həllindəki uyğunsuzluqları belə qiymətləndirib: Müəyyən hərəkət var, əgər əvvəllər tərəflərin mövqeləri arasında fərq 1 kilometr idisə, indi 990 metrdir.

Paşinyanın Vaşinqton danışıqlarının nəticələrinə alleqorik şərhindən belə məlum olur ki, dördgünlük intensiv danışıqlar və maksimum diplomatik səylər zamanı tərəflər mövqe yaxınlığı baxımından bir-birinə yalnız 10 addım yaxınlaşmağı bacarıblar. Bu, həm də İrəvanın ABŞ-ın nəhəng səylərinə verdiyi qiymətdir. Göründüyü kimi, Nikol da gələcək nəticələr ilə, yaxud onların necə deyərlər, əl yeri qoymaqdadır.

***

İndi isə Ermənistanın ictimai rəyində yayılmış və Vaşinqton raundunu heçə endirməyə yönəlmiş iddialara, bir qədər də konkret şəkildə nəzər salaq. Məsələn, politoloq Suren Surenyants danışıqların effektiv olmadığı fikrində israrlıdır. “Gözlənildiyi kimi, Mirzoyan-Bayramov danışıqlarının Vaşinqton raundu səmərəsiz oldu. Tərəflər, hətta, birgə bəyanat qəbul etmədilər, yalnız press-relizlə kifayətləndilər”, – deyən politoloq özünün “Vaşinqton uğursuzluğu” formulunu əsaslandırır.

Maraqlıdır ki, hazırda Ermənistanda ABŞ-dakı danışıqların əhəmiyyətini kiçiltmək yönümlü diskussiyaların episentrində Rusiya amili də dayanır. Təsəvvür edin, ilk baxışdan, anti-Rusiya ovqatına köklənmiş İrəvan siyasiləri, indi, nədənsə, Moskvanı yada salmağa girişiblər. Bu mənada politoloq Surenyants da istisna deyil. Əlbəttə, o, absurd fikir səsləndirməkdə unikaldır. Sən demə, Ermənistan güclənməli imiş ki, danışıqlar düzgün getsin: “Birincisi, Ermənistan-Azərbaycan birbaşa dialoq institutu səmərəli işləyə bilməz. Çünki İrəvanla Bakı arasında güc balansı pozulub. Azərbaycan güclüdür və öz şərtlərini İrəvana diktə etməyə çalışır. İkincisi, biz Rusiyanın siyasətini bəyənsək də – bəyənməsək də göz qabağındadır ki, Moskvanın iştirakı olmadan Ermənistan – Azərbaycan münasibətlərinin nizamlanması mümkün deyil. Rusiya Cənubi Qafqazın əsas moderatorudur. Ölkə bu münaqişədə yalnız əsas vasitəçi deyil, həm də faktiki olaraq, münaqişənin tərəfi və iştirakçısıdır. Bu da 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatın məntiqindən irəli gəlir. Təbii ki, deyilənlərdən belə nəticə çıxmır ki, danışıqların Moskva raundu uğurla başa çatacaq”.

Diqqət yetirək, Paşinyan Vaşinqton danışıqlarının davam etdiyi bir vaxtda, Praqada olarkən Moskvaya səfərinin anonsunu vermişdi. Deməli, erməni baş nazir manevr barədə əvvəldən düşünübmüş. O, nazirlərin ABŞ-dakı təmasını “uğursuzlaşdıraraq”, Kremlə sığınmaq yolunu planlaşdırıbmış. Deməli, Ermənistanın ictimai rəyindəki ab-hava təsadüf deyilmiş...

Bəli, erməni kütləvi informasiya vasitələri Azərbaycan və Ermənistan XİN rəhbərləri arasında danışıqların növbəti raundunun yaxın vaxtlarda Rusiyanın xarici işlər naziri Sergey Lavrovun vasitəçiliyi ilə Moskvada baş tutacağını qabardırlar. Belə yanaşma, psixoloji baxımdan, danışıqları sıfır nöqtəsinə qaytarmağa hesablanıb. Bu, həm də ABŞ–Rusiya rəqabəti üçün, bir növ, impuls verməkdir. Əsl “məqsədi” pərdələmək yolu tutan Paşinyan, guya, bu iki güc arasındakı konseptual yanaşmalarda fərq yoxmuş kimi bildirir ki, Vaşinqtonda başlayan müzakirə Moskvada davam etdirilə bilər. Hər halda, kimə qaranlıq qalsa da, yanaşmalardakı fərq erməni baş nazirə çox yaxşı məlumdur.

İrəvanın Bakı ilə münasibətlərin nizamlanması kontekstindəki növbəti məqama, daha doğrusu, manipulyasiyaya diqqət yetirək. Ermənistan siyasiləri bildirirlər ki, iki Cənubi Qafqaz ölkəsi arasındakı nizamlanma birgə beynəlxalq səylər olmadan mümkün deyil. Onların iddialarına görə, problem Rusiya ilə Qərb arasında qlobal münaqişə və beynəlxalq xaos yaradılmaqla yoluna qoyula bilməz və belə olarsa, Ermənistanın və Qarabağın erməni əhalisinin təhlükəsizliyi baxımından risklər yaranar.

Diqqət yetirək, Fransanı bölgəyə cəlb etməklə, Rusiya ilə aşkar konfrantasiyalara getməkdən çəkinməyən və bu hərəkətlərlə özlərinin avantürist baxışlarını gerçəkləşməyə çalışanlar hazırda bölgədəki mümkün lokal xaosdan danışırlar. Görəsən, Rusiya Avropa İttifaqının Cənubi Qafqazdakı mülki missiyasını bölgədə əlavə qıcıqlandırıcılar kimi qiymətləndirəndə və məsələyə etiraz edəndə harada idilər? İndi, çətinə düşəndə yenidən Kremlə pənah aparmaq niyyətinə düşüblər. Bu niyyət daşıyıcılarından biri də Regional Demokratiya və Təhlükəsizlik Mərkəzinin rəhbəri, politoloq Tiqran Qriqoryandır. O da həmkarı Surenyants kimi hesab edir ki, Vaşinqton danışıqları marafonu daha az nəticə ilə başa çatıb. Sanki, erməni Rusiya vasitəçiliyi çox uğurlu imiş...

Erməni siyasilərin Vaşinqton prosesindən sonra qaldırdıqları daha bir probleme diqqət yetirək. Onlar yenə də Bakı-Xankəndi dialoqu məntiqini qabartmaqdadırlar. Nəzərə alaq ki, bu məntiq, nəinki Vaşinqton prosesinin, ümumən, Azərbaycan-Ermənistan münasibətlərinin tənzimlənməsinin ruhuna tamamilə ziddir. Hər halda, Bakının belə bir absurd yanaşma ilə razılaşmayacağı tam bəllidir. Məsələyə mövcud aspekti nəzərə almadan yanaşma da onu göstərir ki, İrəvanda sülhə yaxınlaşmaq istəkləri yoxdur.

Sonda bir daha bildirək ki, Ermənistan Vaşinqton prosesini heçə saymaqla, belə demək mümkünsə, öz aləmində hansısa sıfır nöqtəsi müəyyənləşdirməklə, bir daha Azərbaycanla sülhdə maraqlı olmadığını göstərməkdədir. Azərbaycan cəmiyyəti 44 günlük müharibədən sonra sülh danışıqları ilə bağlı belə qənaətə gəlmişdi ki, İrəvan imitasiya yolu tutur və bu yol vaxt qazanmağı, yenidən güclənərək ölkəmizə qarşı aqressiv davranmağı hədəf seçib. Cəmiyyətimizin düşüncəsində haqlı olduğu yenidən təsdiqlənir.

Digər tərəfdən, Ermənistan sülh danışıqları fonunda aktivlik nümayişinin artmasının hansı zamana təsadüf etməsinə də diqqət yetirək. Nə vaxt ki, Azərbaycan kəskin addımlar atır, dialoq məsələsi o zaman aktuallaşır. 2022-ci ilin sentyabrındakı hərbi qarşıdurmadan sonra da belə oldu, Laçın-Xankəndi yolundakı sərhəddə nəzarət-buraxılış məntəqəsinin qurulmasından sonra da. Belə çıxır ki, Ermənistanı konstruktiv mövqe nümayişi bir yana, belə mövqedə dayandığını göstərməsi üçün ancaq təzyiqlərə ehtiyac var. Amma hər şeyin də bir sonu var. Elə səbrin də.

*Ə.CAHANGİROĞLU,*
*“Xalq qəzeti”*

# Eçmiədzin təxribat yuvası olaraq qalır



**Bütün ermənilərin katolikosu II Qaregin Ermənistanla Azərbaycan arasında 35 ildən artıqdır davam edən milli ədavətə, kin-küdurətə son qoyan çağırış etmək əvəzinə, etnik nifrət hissini daha da qızışdıran açıqlama ilə çıxış edib. O, mayın 7-də Ermənistan Universitetinin tələbə və məzunları ilə görüşündə Qarabağ ermənilərinin “azad və müstəqil yaşamaq” hüququnun qorunmasının vacibliyini bildirib. Katolikos erməni apostol kilsəsinin (bəzən erməni Qriqorian kilsəsi də deyilir) xalqın “müstəqil dövlət” ideyasını hər zaman dəstəklədiyini təsdiqləyib. Eçmiədzin kilsəsinin mətbuat xidmətinin verdiyi məlumata görə, katolikos ölkəsinin və erməni xalqının düşdüyü çətin vəziyyətə toxunub.**

***

Əslində, katolikos II Qareginin bu açıqlaması təəssüf doğursa da, bizim üçün təəccüblü deyil. Məsələ ondadır ki, Ermənistanla Azərbaycan, həmçinin Ermənistanla Türkiyə arasında yaşanan bütün münaqişələrin başında və sonrakı inkişafının mərkəzində hər zaman erməni apostol kilsəsi dayanıb. Tarixə nəzər salsaq, Türkiyəyə və Azərbaycana qarşı düşmənçiliyin, Qarabağda həyata keçirilən qırğınların, 1905-1907 və 1918-ci ilin martında soydaşlarımıza qarşı həyata keçirilən vəhşiliklərin başında erməni kilsəsinin dayandığını sübut edən kifayət qədər faktların mövcud olduğunu görərik. İki xalq arasında fitnə-fəsad toxumunu səpən də elə kilsə olub. Kilsə dini vəzifələri yerinə yetirməklə yanaşı, həm də erməni cəmiyyətinin həyatında fəal rol oynayan qurumdur. Bu, hər zaman belə olub və bu gün də belədir. Erməni diasporunun ən çox eşitdiyi və qərarlarını icra etdiyi qurum da kilsədir. Özü də diaspor kilsənin qəbul etdiyi qərarları hər zaman böyük həvəslə icra edib. İndi də erməni diasporu həmin fəaliyyəti yerinə yetirir. Onların Azərbaycanın və azərbaycanlıların ünvanına səsləndirdikləri şər-böhtanların, uydurmaların hamısı erməni kilsəsinin vermiş olduğu qərarlara bağlıdır. Belə bir tendensiyaya digər səmavi dinlərin heç birində rast gəlinmir. Erməni din xadimləri isə xalqımıza qarşı düşmənçilik siyasətinin başında dayanırlar.

***

Katolikos II Qareginin bu çağırışı həm də iki ölkə arasında başlanmış kövrək sülh prosesini pozmağa yönəlmiş addımdır. Məlumdur ki, mayın 1-4-də ABŞ-ın Virciniya ştatının Arlinqton şəhərində iki ölkənin xarici işlər naziri – Ceyhun Bayramov və Ararat Mirzoyan arasında danışıqlar aparılıb. Vaşinqtonda olarkən onlar ABŞ Dövlət katibi Antoni Blinken və prezidentin köməkçisi, milli təhlükəsizlik üzrə müşaviri Ceyk Sallivanla görüşüblər. Bundan əlavə, Böyük Britaniyanın gündəlik qəzeti olan “Financial Times” qəzeti Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistanın baş naziri Nikol Paşinyanın mayın 14-də Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin vasitəçiliyi ilə görüşəcəklərini yazıb. Qəzet qeyd edir ki, bu informasiyanı prosesdən yaxşı xəbərdar olan üç mənbə təsdiqləyib. “Financial Times” yazır ki, Nikol Paşinyan, Prezident İlham Əliyev və Şarl Mişel iyunun 1-də Kişinyovda keçiriləcək Avropa Siyasi Birliyinin Sammiti çərçivəsində Almaniya Kansleri Olaf Şolts və Fransa prezidenti Emmanuel Makronla görüşə bilər. Belə mühüm proseslərin yaşandığı bir dövrdə erməni katolikosunun verdiyi açıqlama erməni cəmiyyətini sülhə hazırlamaq istəyinə uyğun gəlmir. II Qareginin bu mövqeyi nifrət hissini artırmaqla milli ədavəti qızışdırmağa və başlanmış kövrək sülh prosesini pozmağa hesablanıb.

***

Katolikosun bir neçə gün əvvəl Ermənistan ordusunun üçüncü korpusunun sabiq komandiri, çirkli pulların yuyulması və vəzifə səlahiyyətlərindən sui-istifadəyə görə hazırda həbsdə olan general-mayor Qriqori Xaçaturovun hüquqlarının müdafiəsi üzrə ictimai təşəbbüs qrupunun üzvlərini öz iqamətgahında qəbul etməsi də onun nə qədər siyasiləşməsinin göstəricisidir. Adı kilsə olsa da bu qurum hər zaman terrorçuları, müxtəlif qara əməllərlə məşğul olanları, “Daşnaksütyun” və “Hnçak” kimi partiyaları müdafiə etməklə məşğul olub. İndi də ayrı-seçkiliyi, irqçiliyi dəstəkləməklə məşğuldur.

Mayın 9-da Eçmiədzin kilsəsində ediləcək sülh duası da riyakarlıqdan başqa bir şey deyil. Bununla bağlı yayılan məlumatda səhər saatlarında ediləcək duanın mövzusunun “Doğma vətənimiz Ermənistan və Qarabağın sülhü və təhlükəsizliyi üçün” adlandırılması kilsənin növbəti təxribatlarından biridir. Qarabağ sözünün bura daxil edilməsi həm də Azərbaycanın daxili işlərinə kobud müdaxilədir.

Kilsənin bu yaramaz əməlləri ölkəmizdə dəfələrlə tənqid hədəfi olub. Sonuncu dəfə Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə Türk Dövlətləri Təşkilatına üzv ölkələrin müsəlman dini liderlərinin 2022-ci ilin oktyabrın 20-də Şuşada keçirilən III görüşündə çıxışı zamanı deyib ki, erməni apostol kilsəsi erməni revanşizminin önündə gedir, qisas təbliğatı, beynəlxalq müstəvidə Azərbaycana qarşı qarayaxma kampaniyası aparır.

***

**Politoloq Aydın Quliyev də “Xalq qəzeti”nə açıqlamasında Eçmiədzin kilsəsinin və katolikosluğun tarix boyu Azərbaycana qarşı aparılan təcavüzkarlıq kursunun yaradıcılarından və ən fəal iştirakçılarından olduğunu bildirib.** Qeyd edib ki,



ümumiyyətlə, türk dünyasından qisas almaq siyasətinin başında bu qurum dayanır: “Bu gün də Azərbaycana qarşı aparılan siyasətin ən fəal iştirakçılarından biri məhz Eçmiədzin kilsəsidir. Azərbaycanda separatizm hərəkatının hazırlanmasından başlamış ta indiyədək bu siyasətin ideya mənbəyi kilsə olub. II Qaregin dəfələrlə Qarabağa, Xankəndiyə səfərlər edib. Azərbaycanın bu ərazilərdə, guya, erməni mədəni və dini irsini məhv edən ölkə olması ilə bağlı rəy yaradan şəxslərdən biri məhz katolikosdur. O, Azərbaycan dövlətinə olmazın böhtanlar atıb”.

Aydın Quliyev qeyd edib ki, Eçmiədzin kilsəsi ölkəmizə qarşı bir vaxtlar təcavüz siyasətinin, indi isə revanşizmin mühüm qüvvələrindən biridir: “Bu siyasət digər ölkələrdə də aparılır. Təsadüfi deyil ki, dünya dini liderlərinin sammitinin iştirakçıları katolikosa dəfələrlə bu qisasçı və qızışdırıcı siyasətdən əl çəkməklə bağlı müraciətlər etsələr də, II Qaregin özünün qara əməllərindən bir addım da olsun geri çəkilməyib. Buna görə də, əslində, ondan apardığı siyasəti düzəldəcəyini gözləmək lazım deyil, onun Azərbaycanla bağlı apardığı revanşist siyasətin layiqli cavabı verilməlidir. Çünki təcrübə göstərir ki, II Qaregin Azərbaycana və bütün türk dünyasına qarşı qara əməllərindən heç vaxt əl çəkməyib və əl çəkənə də oxşamır”.

*Səxavət HƏMİD,*
*“Xalq qəzeti”*

# Qurucu liderin iqtisadi strategiyası



**Ümummilli lider Heydər Əliyevin tükənməz mənəvi irsi onun çoxəsrlik tariximizin ən mükəmməl və qüdrətli şəxsiyyəti olduğunu qəti olaraq sübut etmişdir. Azərbaycanın müstəqilliyini təmin etməklə, suveren dövlətin əsaslarını yaratmaqla ulu öndər xalqımızın mötəbər və təminatlı gələcəyinə böyük yol açmışdır.**

Çağdaş Azərbaycan tarixinin bütöv bir dövrü ümummilli lider Heydər Əliyevin şərəfli adı və möhtəşəm fəaliyyəti ilə bilavasitə bağlıdır. Ölkəmiz 64 ildir ki, sevimli liderinin amal və ideyalarına uyğun olaraq irəli gedir, çətinlik və maneələri inamla dəf edir, tarixə yazılan böyük nailiyyətlər əldə edir. Tərəqqipərvər insanlar və bütün Azərbaycan xalqı Heydər Əliyevin şəxsiyyətinə, onun ideyalarına, qoyduğu dəyərli irsə böyük hörmət və ehtiramla yanaşırlar. Onun bir qərinəlik rəhbərliyi dövründə respublikamız əsrə bərabər inkişaf yolu keçmişdir.

Ulu öndər öz ölkəsinə rəhbərlik etdiyi hər iki dövrdə var qüvvəsini və bacarığını Azərbaycanın yüksəlişinə həsr etmiş, respublikamızın hər yerində nəhəng quruculuq işlərinin təşəbbüskarı olmuşdur. Onun liderlik fəaliyyətinin ilk 2 onillik dövrü ölkənin müstəqillik dövrünə hərtərəfli hazırlıq tədbirləri ilə əlamətdar olmuşdur. Azərbaycan müstəqilliyin ilk addımında naşı siyasi qüvvələrin məsuliyyətsizliyi və xəyanətkarlığı səbəbindən məhv olmaq təhlükəsi ilə üzləşəndə isə ümummilli lider öz xaqının harayına yetişərək onun xilaskarına çevrildi.

Tarixi fəlakət məqamında xalqın ümidgahına çevrilmiş Heydər Əliyev həmin tarixi sınaq günlərində mürəkkəb siyasi reallığı, üzərinə düşən ağır və taleyüklü missiyanı belə cavablandırmışdı: "Xalq mənə ümid bəsləyir, mən də bu ümidi doğrultmaq üçün ömrümün qalan hissəsini də xalqıma bağışlayıram və həyatımı xalqıma qurban verməyə hazıram".

Xalqımızın qüdrətli oğlunun zəngin təcrübəsi və siyasi iradəsi hərbi-siyasi böhranı aradan qaldırmaqda, sabitlik və milli birliyi təmin etməkdə, dirçəliş və inkişafa nail olmaqda həlledici rol oynadı.

Bu gün biz fəxrlə deyirik ki, Azərbaycanı dünya dövlətləri arasında irəli çıxaran, xalqı məhv olmaqdan xilas edən, onun gələcək inkişafına möhkəm zəmin yaradan ulu öndər Heydər Əliyev oldu. Dünya şöhrətli siyasət və dövlət xadimi Heydər Əliyev tükənməz enerjisini nəinki öz xalqının, dövlətinin inkişafına, bütövlükdə, dünya xalqlarının iqtisadi, mədəni səviyyəsinin yüksəlməsinə, mehriban münasibətlərin dərin kök salmasına sərf edirdi.

Ümummilli liderimiz Heydər Əliyev keçmiş SSRİ məkanında yaranmış Müstəqil Dövlətlər Birliyi çərçivəsində hamının öyrənmək istədiyi siyasətçi idi. MDB dövlət başçılarının sammitlərində çıxış edən Azərbaycan liderinin hər bir təklifi böyük maraq və ehtiramla qarşılanırdı. O, bütün dünya siyasətçiləri arasında uzaqgörən şəxsiyyət kimi böyük nüfuz və hörmət qazanmışdı. Böyük siyasət qrossmeysterlərindən sayılan ABŞ prezidentinin milli təhlükəsizlik üzrə keçmiş müşaviri Zbiqnev Bjezinski Heydər Əliyevi "siyasi cəhətdən möhkəm, məntiqli, zəkalı, istədiyini tez çatdıran şəxsiyyət, bir sözlə, şəksiz lider" kimi yüksək qiymətləndirmişdir.

Məhz Azərbaycan Prezidenti Heydər Əliyevin təşəbbüsü ilə bərpa edilən tarixi Böyük ipək yolu dünyamızın Şərqi ilə Qərbini birləşdirərək bütün dövlətlərin inkişafına mühüm təkan vermişdir. Bu siyasətin davamı olaraq sonrakı illərdə Azərbaycan bir sıra qlobal layihələrin önəmli həlqəsi və tərəfdaşı rolunu inamla gerçəkləşdirmişdir.

Ümummilli lider Heydər Əliyev Azərbaycanın neft-qaz ehtiyatını dövlət müstəqilliyinin möhkəmləndirilməsi, ölkənin iqtisadi tərəqqisinin təmin edilməsi və xalqın rifahının yüksəldilməsi amilinə çevrilməsinə məharətlə nail oldu. Qurucu liderin rəhbərliyi altında hazırlanmış, beynəlxalq aləmdə yüksək qiymətləndirilmiş "Əsrin müqaviləsi" sonradan haqlı olaraq "Heydər Əliyevin neft strategiyası" adı aldı. Bu tarixi bağlaşma Azərbaycanın iqtisadi müstəqilliyinin təməl daşına çevrildi, azad iqtisadi mexanizmlərin tətbiq edilməsini və respublikamızın dünya iqtisadiyyatına dinamik inteqrasiyasını təmin etdi.

Böyük rəhbərin ən layiqli davamçısı Prezident İlham Əliyev müstəqil dövlətin neft strategiyasının uğurlarından söz açaraq demişdir: "Azərbaycan müstəqil dövlət kimi öz neft potensialını çox uğurla işə salıbdır. Əlbəttə ki, bütün bu görülən işlərin səbəbkarı və təşəbbüskarı xalqımızın ümummilli lideri Heydər Əliyev olmuşdur". Ümumiyyətlə, respublikamızda imzalanmış 20-dən artıq beynəlxalq neft müqaviləsi çərçivəsində görülən müştərək işlər ölkəmizə mütərəqqi texnologiyaların gətirilməsi, neft sənayesinin infrastrukturunun yenidən qurulması, nəqliyyat və xidmət sahələrinin inkişafı, yüksək peşəkar milli kadrların hazırlanması və minlərlə yeni iş yerinin açılması üçün geniş imkanlar açmışdır.

Azərbaycanda 1993-cü ilin ikinci yarısından etibarən ümummilli lider Heydər Əliyev tərəfindən aparılan məqsədyönlü daxili və xarici siyasət nəticəsində 1995-ci ildə ölkədə yaranmış ictimai-siyasi sabitlik sosial-iqtisadi problemlərin həllini, o cümlədən əhalinin həyat səviyyəsinin yaxşılaşması sahəsində görülən işləri ön plana çəkmişdir. Ardıcıl olaraq aparılan islahatlar qısa müddət ərzində öz bəhrəsini verməyə başlamış və iqtisadiyyatın ayrı-ayrı sahəsində ciddi irəliləyiş əldə edilmişdir. Görülən məqsədyönlü və uzaq perspektivlərə hesablanmış tədbirlər nəticəsində geriləmənin qarşısı birdəfəlik alınmış, Azərbaycan sürətli və hərtərəfli inkişaf yoluna çıxmışdır.

Böyük strateq Heydər Əliyevin rəhbərliyi ilə dövlət müstəqilliyimizin təmin edilməsi və bazar münasibətlərinin inkişaf etdirilməsi sahəsində aparılan iqtisadi islahatlar Azərbaycanın iqtisadiyyatının inkişafı və dünya təsərrüfat sisteminə daha sıx inteqrasiya olunması üçün əlverişli şərait yaratmışdır. Azərbaycan iqtisadi və siyasəti suverenlik əldə etdikdən sonra dünya dövlətləri ilə sərbəst əməkdaşlıq etmək imkanı qazanmışdır. Müstəqil dövlətin memarının müəyyən etdiyi iqtisadi siyasət strategiyasının başlıca istiqamətlərini sabitləşdirmə, islahatlaşdırma, dünya iqtisadi inteqrasiyasına qoşulma, sosial-iqtisadi inkişaf və xalqın rifahının yüksəldilməsi və s. təşkil edir.

Ulu öndərin inkişaf strategiyasını yeni çalarlarla zənginləşdirən Prezident İlham Əliyevin praqmatizmə söykənən səmərəli fəaliyyəti nəticəsində Azərbaycanın sosial-iqtisadi tərəqqisi daha intensiv xarakter almağa başlamışdır. Ölkə başçısının rəhbərliyi altında həyata keçirilən iqtisadi siyasətin fərqləndirici xüsusiyyətləri bu sahədə sürətli inkişafa xidmət edən bütün istiqamətlər üzrə fəaliyyətin paralel şəkildə həyata keçirilməsi və əlaqələndirilmiş proqramlar üzrə aparılmasıdır.

Prezident İlham Əliyev ötən dövr ərzində ulu öndərin qurduğu təməl üzərində Azərbaycanın dövlət kimi dayaqlarını möhkəmləndirib. Ölkəmizin təşəbbüsü və yaxından iştirakı ilə həyata keçirilən qlobal enerji-kommunikasiya layihələri regionun geopolitik mənzərəsini yenidən müəyyənləşdirib. Son 20 ildə ölkəmizdə nəqliyyat infrastrukturunun inkişafı ilə bağlı irimiqyaslı layihələr həyata keçirilib, bu sahəyə böyük həcmli dövlət investisiyaları yönəldilib. Bakıda və regionlarda beynəlxalq hava limanlarının, Bakı Beynəlxalq Dəniz Ticarət Limanının tikintisi, Şərq-Qərb və Şimal-Cənub, Orta nəqliyyat dəhlizlərinin inkişafı istiqamətində gerçəkləşdirilən layihələr Azərbaycanın nəqliyyat infrastrukturunun inkişafında əhəmiyyətli rol oynamaqla yanaşı, ölkəmizin tranzit potensialını da gücləndirib.

Artıq işğaldan azad edilmiş Qarabağ ərazisində böyük quruculuq işləri həyata keçirilir. Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva vaxtaşırı tikinti meydançalarında olurlar. Son bir neçə gündə dövlət başçısının Ağdamda və Şərqi Zəngəzur bölgəsində start verdiyi çoxsaylı önəmli layihələrlə Böyük Qayıdışa hazırlığın yeni mərhələsi başlandı.

Bütün bunlar xalqımızda sonsuz qürur hissi və vüsətli quruculuq əzmi yaradır. Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin Ata vəsiyyətini şərəflə yerinə yetirir. Ulu öndərin tükənməz ideya irsi və Azərbaycanın gələcəyi ilə bağlı böyük arzuları isə ölkəmizi dünya birliyində ön mövqelərə çıxarır.

***Arif ŞƏKƏRƏLİYEV,***
***Azərbaycan Dövlət İqtisad Universitetinin professoru, Əməkdar elm xadimi***

## Ulu öndərin əsasını qoyduğu məhkəmə-hüquq sistemi və mövcud reallıqlar

**Müasir dövrün qlobal çağırışlarına cavab verən müstəqil Azərbaycanda bu gün mühüm islahatlar həyata keçirilir və uğurlu nəticələr əldə edilir. Təbii ki, bu islahatlar həyatın bütün sahələrində özünü göstərir. Hüquqi, dünyəvi, demokratik dövlət quruculuğu yolu ilə inamla irəliləyən, müstəqilliyini daha da möhkəmləndirən Azərbaycan hazırda beynəlxalq aləmdə nüfuz, söz sahibi kimi öz yerini və rolunu gücləndirməkdədir.**

Azərbaycanın demokratik dəyərlərə sadiq müstəqil dövlət kimi formalaşmasında ümummilli lider Heydər Əliyevin böyük xidmətləri olub. XX əsrin 90-cı illərinin əvvəllərində, müstəqilliyin bərpasının ilk vaxtlarında Azərbaycan son dərəcə çətin sınaqlarla qarşılaşmış, hətta dövlət kimi "Olum, ya ölüm" dilemması ilə üz-üzə qalmışdı. Hadisələr Azərbaycanın əleyhinə cərəyan edirdi, daxili qarşıdurmalar və xarici təzyiqlər isə müstəqillik və suverenliyimizin itirilməsi ilə nəticələnmək üzrə idi. Ta ki, ümummilli lider Heydər Əliyev növbəti dəfə siyasi hakimiyyətə gələnədək…

Ulu öndərin həyatın bütün sahələrində, xüsusilə hüquqi, demokratik dövlət idarəçiliyinin yaradılması istiqamətində gördüyü işləri xüsusi olaraq qeyd etmək gərəkdir. O dövrdə yenicə müstəqillik əldə etmiş bir dövlətin inkişafında mükəmməl qanunvericilik bazasının yaradılması, qanunun aliliyinin təmin edilməsi mühüm şərt idi.

Azərbaycan xalqı müstəqillik əldə etdikdən sonra qanunvericilik bazasının formalaşdırılması, hüquqi islahatların həyata keçirilməsi, demokratik dəyərlərə əsaslanan hüquq və məhkəmə sisteminin yaradılması sahəsində Heydər Əliyevin rolu əvəzsizdir. O, demokratiya, qanunun aliliyi, insan hüquqları və azadlıqlarının təmin olunması istiqamətində, siyasi, iqtisadi, əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində çox mühüm və qətiyyətli addımlar atmışdı.

Heydər Əliyev ölkəmizdə müasir demokratik məhkəmə-hüquq sisteminin yaradıcısıdır. Ulu öndər tərəfindən aparılan köklü məhkəmə-hüquq islahatları çox dəyərli konsepsiyaya söykənir. Bu konsepsiya inkişaf etmiş ölkələrin hüquqi dövlət quruculuğu təcrübəsinə, ümumbəşəri demokratik prinsiplərə, eyni zamanda, Azərbaycan xalqının dövlətçilik tarixi və ənənələrinə əsaslanır. Bu hüquqi islahatlar azad cəmiyyətin formalaşmasına, hüquqi, demokratik dövlət quruculuğuna, qanunun aliliyinin təmin olunmasına, insan hüquq və azadlıqlarının müdafiəsinə təminat yaradır.

Azərbaycanda müstəqil məhkəmə hakimiyyətinin formalaşması ümummilli lider Heydər Əliyevin daim diqqət mərkəzində olmuşdur. Konstitusiyanın qəbulu ilə məhkəmə hakimiyyəti dövlət hakimiyyətinin müstəqil qolunun bütün atributlarına, hüquqi dövlətin prinsip və vəzifələrinə uyğun olaraq, qanunverici və icra hakimiyyəti ilə eyni statusu qazandı. Ulu öndərin təşəbbüsü ilə 1997-ci ildə "Məhkəmələr və hakimlər haqqında" yeni Qanun qəbul edildi. Qanunun tətbiq edilməsi və məhkəmə islahatlarının həyata keçirilməsinə dair fərman imzalandı. Ümummilli liderin rəhbərliyi ilə aparılan əsaslı məhkəmə-hüquq islahatları nəticəsində üçpilləli müstəqil məhkəmə sistemi formalaşdırıldı.

1998-ci ildə isə Azərbaycan Respublikası Prezidenti yanında məhkəmələrin təşkil edilməsi, hakim vəzifəsinə namizədlərin seçilməsi, habelə məhkəmələr və hakimlərlə bağlı digər məsələləri öz səlahiyyətləri dairəsində həyata keçirmək vəzifələrini yerinə yetirən Məhkəmə-Hüquq Şurası təsis olundu.

Heydər Əliyev ideyalarını uğurla davam etdirən möhtərəm Prezidentimiz İlham Əliyevin təşəbbüsü ilə məhkəmə sisteminin daha da müasirləşdirilərək Avropa standartlarına uyğunlaşdırılmasına başlanıldı. Bir sıra mühüm islahatlarla yanaşı, yeni hakimlərin çoxmərhələli imtahanlardan, tədris və stajkeçmədən ibarət olan seçimləri xüsusi şəffaflığına və obyektivliyinə görə Avropa Şurası və Avropa İttifaqı tərəfindən yüksək dəyərləndirildi. Zaman keçdikcə yeni regional məhkəmə, apellyasiya məhkəmələri və inzibati ədliyyə sistemi yaradıldı. Hakimlərin sayı iki dəfə artırıldı, məhkəmə infrastrukturunun müasirləşdirilməsi istiqamətində mühüm tədbirlər həyata keçirildi.

Bu gün ömrünü bütünlüklə xalqının rifahına və dövlətinin gələcək inkişafına həsr etmiş Heydər Əliyevin yaratdığı müasir Azərbaycan dövləti möhkəm təməllər üzərində dinamik tərəqqi yolu ilə irəliləyir, qüdrətlənir və inkişaf edir. Məhkəmə orqanlarında daha geniş islahatlar həyata keçirilir, müasir texnologiyalar tətbiq edilir, qanunvericilik bazası təkmilləşdirilir. Bir sözlə, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan dayanıqlı və perspektivli məhkəmə sistemi yeni dinamik inkişaf mərhələsini yaşayır. Məhkəmə-hüquq sistemində inkişafın yüksək səviyyədə həyata keçirilməsi məqsədi ilə hər bir hakim öz üzərinə düşən məsuliyyəti dərk edir, ədalət, qanunçuluq və qərəzsizlik prinsiplərinin tələblərini həmişə uca tutmağa çalışır.

Müstəqil Azərbaycanın banisi Heydər Əliyevin xatirəsi hər birimiz tərəfindən dərin hörmət və ehtiramla anılır. Bu gün hər bir Azərbaycan vətəndaşı ulu öndərin əziz xatirəsini həmişə uca tutur və minnətdarlıqla anır, Heydər Əliyevin bizə müqəddəs miras qoyduğu müstəqil, demokratik dövləti qoruyub saxlamağı şərəfli vəzifə hesab edir. Dahi şəxsiyyət Heydər Əliyevin dövlətçilik siyasəti Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir. Yaradılması xalqımızın ümummilli liderinin adı ilə bağlı olan məhkəmə-hüquq sistemində çalışan hər kəs öz gələcək fəaliyyətində dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən və dövlətçiliyimizin inkişafına yönələn islahatlara öz töhfəsini vermək üçün əzmlə çalışır.

***Pərviz HACIYEV,***
***Şəki Rayon Məhkəməsinin hakimi***



## "Heydər Əliyev. Elektron sənədlər toplusu" yeni məzmun və dizaynda

**Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasında ulu öndər Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş geniş foto və kitab sərgilərinin, tammətnli elektron resursların, sənədlər toplusunun təqdimatı təşkil edilib.**

Tədbirdə çıxış edən kitabxananın direktoru Mayıl Əhmədov hazırda istər ölkə daxilində, istərsə də xarici ölkələrdə ulu öndərin anadan olmasının 100 illiyi münasibətilə silsilə tədbirlər və beynəlxalq konfransların keçirildiyini, Heydər Əliyevin ömür yolu, dövlətçilik missiyası və zəngin irsinin yenidən öyrənildiyini, təhlil və təbliğ edildiyini bildirdi. Qeyd etdi ki, "Heydər Əliyev. Elektron sənədlər toplusu" ümummilli liderin anadan olmasının 100 illiyi ərəfəsində həm məzmun, həm də dizayn baxımından tamamilə yenilənib.

Bildirildi ki, "Heydər Əliyev. Elektron sənədlər toplusu" 8 fəsil və 42 bölmədən ibarətdir. "Ümummilli lider", "Sənədlər", "Xarici siyasət fəaliyyəti", "Elektron kitabxana", "Biblioqrafiya", "Fotoqalereya" digər fəsillərin yer aldığı informasiya resursu geniş oxucu kütləsinin və tədqiqatçıların istifadəsi üçün nəzərdə tutulub və sənədlərin, materialların rəqəmsal formatda toplanılması, təqdim edilməsi baxımından ölkədə yaradılan ən mükəmməl informasiya sistemidir.

Tədbirdə Yeni Azərbaycan Partiyasının sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin İctimai-Siyasi Sənədlər Arxivinin direktoru Elmira Ələkbərova çıxış edərək Azərbaycanın inkişafı naminə ümummilli lider Heydər Əliyevin gördüyü misilsiz işlərdən danışıblar.

Sonra ulu öndərin həyat və yaradıcılığından bəhs edən videoçarx nümayiş etdirilib, ümummilli liderin anadan olmasının 100 illiyinə həsr olunmuş geniş foto və kitab sərgilərinə baxış keçirilib.

***Leyla AZAD,***
***"Xalq qəzeti"***

## "Dünyanı heyran qoyan insan"

**Ağcabədi Rayon Mədəniyyət Mərkəzində "Heydər Əliyev İli" çərçivəsində "Dünyanı heyran qoyan insan " mövzusunda konfrans keçirilib.**



YAP Ağcabədi rayon təşkilatının sədri Rövşən Əhmədov bildirib ki, Azərbaycanın hərtərəfli inkişafı ulu öndər Heydər Əliyevin adı, dövlətçilik təfəkkürü, idarəetmə məharəti və yorulmaz fəaliyyəti ilə sıx bağlı olmuşdur. Ən yüksək tribunalardan böyük iftixarla "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam" söyləyən bu böyük şəxsiyyət, ilk növbədə, dövlətçilik tariximizin müasir mərhələsinin əsasını qoymuşdur. Ümummilli lider Heydər Əliyev Azərbaycanın parlaq və firavan gələcəyinə öz varlığı qədər inanırdı. Çünki onun təməlini qoyduğu bu siyasi kurs və iqtisadi inkişaf modeli dərin elmi əsaslara və qabaqcıl dünya təcrübəsinə söykənirdi. Ulu öndər İlham Əliyevin Azərbaycan üçün taleyüklü məsələləri həll etməyə qadir olduğunu vurğulayır və ona özü qədər inandığını bildirirdi.

Milli Məclisin deputatları Tahir Rzayev, Şahin İsmayılov və Aqil Abbas qeyd ediblər ki, Azərbaycan tarixinin son 54 illik dövrünə nəzər yetirəndə ulu öndərin ölkənin gələcəyinə hesablanmış, effektli, uzunmüddətli şərtlərin təminatını, intellektual və elmi potensialın inkişafını nəzərdə tutan, cəmiyyətin həyatına nüfuz etmiş uzaqgörən siyasətin təzahürlərini görürük. Heydər Əliyev Azərbaycan xalqının müdriklik simvolu, müdriklik zirvəsi idi. Bu zirvədən baxanda yalnız bir ömrün yaşandığı illər deyil, bir xalqın dünəni, bugünü və sabahı da görünür.

Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov isə ulu öndər Heydər Əliyevin azərbaycançılıq məfkurəsinə böyük önəm verdiyini vurğulayaraq deyib ki, dünya tarixinin nadir şəxsiyyətlərindən olan Heydər Əliyev öz siyasi uzaqgörənliyi, müdrikliyi, təcrübəsi, iradəsi və qətiyyəti ilə Azərbaycanı və xalqımızı tarixin ağır sınaqlarından uğurla çıxarmışdır.

Sonda rayonun ictimai-siyasi həyatında fərqlənən bir qrup YAP fəalına YAP Ağcabədi rayon təşkilatının fəxri fərmanları təqdim edilmişdir.

***Pünhan ƏFƏNDİYEV,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***

# Azərbaycan elm və təhsilinin inkişafında Heydər Əliyev mərhələsi



**Ulu öndər Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi 1969-1982-ci illərdə respublikamızı inkişaf etməkdə olan aqrar sənaye ölkəsinə çevirərək ön sıralara çıxarmışdı. 1993-2003-cü illəri əhatə edən müstəqillik dövründə isə ümummilli lider Azərbaycanı parçalanmaq və məhv olmaq təhlükəsindən xilas edərək hüquqi və demokratik dövlətimizi qurmuş və onun dünya ölkələri sırasında layiqli yer tutmasına nail olmuşdur. Heydər Əliyev dühasının bütün bu və digər nailiyyətlərinin kökündə böyük həyat və idarəçilik təcrübəsi, parlaq və iti zəka, aydın məntiq, dərin elmi yanaşma dayanırdı.**

Elmin, texnikanın və təhsilin ölkənin sürətli və hərtərəfli inkişafında müstəsna rolunu dərindən dərk edən ümummilli lider bu sahələrin inkişafına xüsusi qayğı və diqqət göstərirdi. Çünki elmi, texnikası və təhsili inkişaf etmiş dövlətlər dünyada söz sahibidir. Elmin, texnikanın və təhsilin inkişafında elmin və elmi kadrların xüsusi rol oynadığını dərindən dərk edən ulu öndər bütün fəaliyyəti boyunca bu sahədəki inkişafa mane olan problemlərin üzə çıxarılmasına, qısa zamanda onların aradan qaldırılmasına böyük enerji sərf etmişdir.

Ümummilli lider Heydər Əliyev 1969-cu ildə respublikamıza rəhbərlik etməyə başlayanda Azərbaycanı hərtərəfli inkişaf etdirmək üçün müxtəlif sahələrdə bir sıra ixtisaslar üzrə çox böyük sayda ali təhsilli mütəxəssisə ehtiyac olduğunu bir fakt kimi ortaya çıxardı. O zaman respublikamıza zəruri olan ixtisaslar üzrə mütəxəssislər hazırlayan ali məktəblər və kafedralar yox idi. Respublikamızdan kənarda ali təhsil almaq üçün göndərilənlərin sayı isə, təqribən, 50 nəfər idi və onların sırasında milliyyətcə azərbaycanlılar azlıq təşkil edirdi. Hər il 50 nəfər gəncin Azərbaycandan kənarda ali təhsil almaq üçün göndərilməsi respublikamızın ali təhsilli kadrlara olan tələbatını ödəmirdi və onlara kəskin ehtiyac hiss edilirdi. Keçmiş Sovet İttifaqının qabaqcıl ali məktəblərində təhsil almaq üçün göndərilən gənclərin sayını kəskin artırmaq isə asan məsələ deyildi. Bu problemi həll etmək üçün ulu öndər böyük çətinliklərlə üzləşməsinə baxmayaraq, keçmiş Sovet İttifaqının ən yüksək səviyyədə təmsil olunan rəhbərliyi ilə danışıqlar aparıb müvafiq rəsmi razılıq aldı və əvvəlki illərdə hər il 700-800, sonrakı illərdə isə hər il 1000-dən artıq istedadlı oğul və qızlarımızı keçmiş Sovet İttifaqının Moskva, Leninqrad və digər şəhərlərinin ən qabaqcıl ali təhsil müəssisələrinə göndərməyə başladı.

Onu da qeyd edim ki, Azərbaycandan kənarda təhsil almaq üçün göndərilən tələbələrin hazırlığı ilə bağlı xərclər respublikamızın hesabına deyil, Mərkəzin, yəni Moskvanın hesabına ödənilirdi.

Ümummilli lider 1970-ci ildə Azərbaycan SSR Elmlər Akademiyası həqiqi və müxbir üzvlərinin müşavirəsində respublikamızda o zaman elmin mövcud vəziyyətini təhlil edərək problemlərə diqqəti yönəltmiş və onların həlli yollarını göstərmişdi. Həmin müşavirədən sonra Azərbaycan SSR Elmlər Akademiyasının fəaliyyətində əsaslı dəyişikliklər baş vermişdir. Belə ki, EA-nın maddi-texniki bazası möhkəmlənmiş, Azərbaycan dili, ədəbiyyatı, tarixi üzrə aparılan tədqiqatlar genişləndirilmiş, yeni mərkəzlər açılmış, elmi işçilərin, elmi-tədqiqat institutlarının və laboratoriyaların sayı artırılmış, yüksəkixtisaslı kadrları yetişdirmək məqsədilə keçmiş Sovet İttifaqının aparıcı elmi mərkəzlərinin və ali təhsil müəssisələrinin laboratoriyalarına kadrlar ezam edilmişdir.

1973-cü ildə ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə keçmiş Sovet İttifaqında ilk dəfə Bakıda "Kosmik Tədqiqatlar: Elm və texnologiyaya təsir" adlı 24-cü Beynəlxalq Astronavtika Konqresi keçirilmişdi. Konqresin Bakıda keçirilməsinin bilavasitə nəticəsi olaraq 1974-cü ildə Azərbaycanda kosmik tədqiqatlar sahəsində ilk tətbiq yönümlü qurum olan Kaspi Elm Mərkəzi və 1975-ci ildə Azərbaycan Dövlət Universitetində (indiki Bakı Dövlət Universiteti) Astrofizika kafedrası yaradılmışdı. Yeni yaradılmış Kaspi Elm Mərkəzi sürətlə inkişaf etməyə başlamış və bir müddət sonra bu mərkəzin və Azərbaycanın digər əlaqədar elm qurumlarının alimləri, mühəndisləri "Salyut-Soyuz" orbital kompleksi üçün RS-17 rentgen spektrometrinin və Mir orbital stansiyası üçün Pulsar-X-1 rentgen aparatının hazırlanmasında fəal iştirak etmişdilər.

Ulu öndər Heydər Əliyevin hərtərəfli dəstəyi və qayğısı sayəsində və yerli alimlərin səyi ilə Azərbaycanda rabitə, elektronika sənayesi, informasiya texnologiyaları, kosmik tədqiqatlar sahəsi formalaşdırıldı, elektron və cihazqayırma zavodları işə salındı, xüsusi konstruktor büroları fəaliyyət göstərməyə başladı. Elmə, elmi işçilərə və alimlərə göstərilən qayğının nəticəsi idi ki, respublikamızda fizika, riyaziyyat, kimya, tibb, yer elmləri, texnika, biologiya və aqrar elmlər sahəsində mühüm nailiyyətlər əldə edilmişdir.

Ümummilli lider siyasi hakimiyyətə qayıdandan sonra artıq Sovet İttifaqı dağıldığına görə, Elmlər Akademiyası tənəzzülə uğramış və dağılmaq təhlükəsi ilə üzləşmişdi. Ulu öndər Azərbaycan alimlərini bir araya toplayıb onlarla məsləhətləşmələr apararaq Elmlər Akademiyasını xalqımızın milli sərvəti adlandırmış və onu dağılmaq və bağlanmaq təhlükəsindən xilas etmişdir. Bundan sonra, Azərbaycan Milli Elmlər Akademiyasının fəaliyyətində canlanma yaranmış, onun institutlarının maddi-texniki bazası zənginləşdirilmişdir.

Azərbaycan Respublikasında yüksəkixtisaslı elmi və elmi-pedaqoji kadrların attestasiyası sahəsində vahid dövlət siyasətini həyata keçirən ali attestasiya orqanının – Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının formalaşması və onun məhz Azərbaycan Respublikasının Prezidenti yanında fəaliyyət göstərməsi ümummilli lider Heydər Əliyevin müstəsna xidməti sayəsində mümkün olmuşdur

Heydər Əliyevin siyasi və iqtisadi kursu, o cümlədən Azərbaycanda elmin inkişafı ilə bağlı həyata keçirdiyi kurs müasir dövrün və dünyanın çağırışları və reallıqları, respublikamızın tələbatı nəzərə alınmaqla bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən böyük müvəffəqiyyətlə davam və inkişaf etdirilir. Bu sahədə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın müstəsna xidmətləri xüsusi qeyd olunmağa layiqdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev respublikamızda elmin sürətli inkişafının, onun praktikaya tətbiqinin, dünya elminə inteqrasiyasının və ölkəmizin iqtisadiyyatına fayda verməsinin təmin edilməsi məqsədilə "Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiya" və "Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiyanın həyata keçirilməsi ilə bağlı dövlət Proqramı" təsdiq etmiş və həmin strategiya və dövlət proqramı onun rəhbərliyi ilə həyata keçirilmişdir. Elmi tədqiqatları dəstəkləmək, elmi işçilərin və alimlərin xaricdə və respublikamızda keçirilən beynəlxalq elmi tədbirlərdə təmsil olunmasını təmin etmək məqsədilə Elmin İnkişafı Fondu yaradılmış və hazırda fəaliyyət göstərir. Elmi fəaliyyətin hüquqi bazasını təmin etmək və möhkəmləndirmək məqsədilə 2016-cı ildə "Elm haqqında" Azərbaycan Respublikasının Qanunu təsdiq olunmuşdur.

Respublikamızda elmin inkişafına, alimlərə və elmi işçilərə dövlət tərəfindən yaradılan şəraitin nəticəsidir ki, bu gün Azərbaycan alimləri İsveçrənin Cenevrə şəhərində yerləşən Avropa Nüvə Tədqiqatları Mərkəzində Böyük Adron Kollayderində, Rusiya Federasiyasının Dubna şəhərində yerləşən Birləşmiş Nüvə Tədqiqatları İnstitutunda, Türkiyə Cümhuriyyətinin Ankara şəhərində yerləşən TÜBİTAK elmi-texniki mərkəzində, Amerika Birləşmiş Ştatlarının, Almaniyanın, Yaponiyanın və dünyanın digər inkişaf etmiş ölkələrinin qabaqcıl elmi mərkəzlərində fəal tədqiqatlar aparırlar.

Bu gün Azərbaycan qlobal əhəmiyyət kəsb edən böyük elmi tədbirlərin keçirildiyi əlverişli bir məkana çevrilmişdir. Belə ki, Azərbaycanın paytaxtı Bakı şəhərində ardıcıl olaraq bir neçə Beynəlxalq Humanitar Forum keçirilmiş və həmin nüfuzlu tədbirlərdə dünyanın tanınmış siyasətçiləri, sabiq dövlət başçıları, ayrı-ayrı elmlər üzrə Nobel mükafatçıları, iqtisadçılar və başqaları iştirak etmişlər.

Azərbaycan Respublikasının Prezident İlham Əliyevin sərəncamı ilə "2019-2023-cü illər üçün ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi və həmin sənədin ikinci komponentinin xaricdə doktorantura səviyyəsində təhsilin maliyyələşdirməsini əhatə etməsi respublikamız üçün elmi dərəcəli kadrların hazırlanması sahəsində xüsusi əhəmiyyətə malikdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2018-ci ilin dekabrın 10-da imzaladığı "Azərbaycan Respublikasında elmi və elmi-pedaqoji kadrların attestasiyasının aparılması işinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" sərəncamı yüksəkixtisaslı elmi kadrların attestasiyasının aparılması işinin təkmilləşdirilməsini və elmi tədqiqatların səviyyəsinin yüksəldilməsini müasir dövrün tələbləri səviyyəsində qurmaq üçün mühüm əhəmiyyət kəsb edir və elmimizin gələcəyi üçün geniş perspektivlər açır.

Son iki onillikdə Azərbaycan kosmosun tədqiqi sahəsində bir sıra mühüm uğurlara imza atıb. Belə ki, 2010-cu ildən başlayaraq, iki telekommunikasiya peyki və bir Yer müşahidə peyki uğurla orbitə çıxarılıb. 2021-ci ildə Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə "Azərkosmos" Açıq Səhmdar Cəmiyyəti Azərbaycan Respublikasının Kosmik Agentliyinə çevrilib. Hərtərəfli dövlət dəstəyi ilə ölkəmizdə kosmik sənaye üzrə müasir infrastruktur yaradılmış, telekommunikasiya və yerətrafı müşahidə peyklərinin orbitə buraxılması sahəsində böyük təcrübə qazanılmış, yeni insan kapitalı və etibarlı tərəfdaş imici formalaşmışdır. Məhz bütün bunların və dövlətimizin başçısı, cənab Prezident İlham Əliyevin reallaşdırdığı uğurlu daxili və xarici siyasətin sayəsində beynəlxalq aləmdə respublikamızın siyasi nüfuzu və ölkəmizə olan inam xeyli artmışdır. Eyni zamanda, Azərbaycanda gedən proseslərin dünya miqyasında aparıcı dövlətlər, beynəlxalq ictimaiyyət və mühüm beynəlxalq təşkilatlar tərəfindən böyük rəğbətlə qarşılanmasının nəticəsidir ki, Beynəlxalq Astronavtika Federasiyası Baş Assambleyası tərəfindən "Qlobal çağırışlar və imkanlar: kosmosa şans verək" adlı 74-cü Beynəlxalq Astronavtika Konqresinin 2023-cü il 2-6 oktyabr tarixlərində Azərbaycanın paytaxtı Bakı şəhərində keçirilməsi qərara alınmışdır.

***Vəli HÜSEYNOV,***
***Fizika İnstitutunun laboratoriya rəhbəri,***
***AMEA-nın müxbir üzvü***

**On milyonlarla soydaşımızın böyük mütəşəkkilliklə bayram etdiyi "Heydər Əliyev ili"nə hərə öz töhfəsini verir. Bu baxımdan "Xalq qəzeti" redaksiyasında təşkil edilmiş yubiley foto-sərgisi xüsusi önəm daşıyır. Çünki ulu öndər Heydər Əliyev birinci dəfə respublika rəhbəri kimi fəaliyyətə başlayandan az sonra məhz bu qəzetin 50 illik yubileyində, həm də Azərbaycan dilində çıxış etmişdir. Eləcə də, müstəqilliyin ilk illərində nəşrin bağlanmasını gündəliyə gətirmiş insanların həmin səhv addımının qarşısı da məhz ulu öndərin siyasi hakimiyyətə qayıdışından sonra alınmışdır...**

# Yüz ilin 100 anı

## *"Xalq qəzeti"nin yubiley sərgisi*




Bu fikirlər redaksiya binasının birinci mərtəbəsində təşkil edilmiş "Heydər Əliyev –100" foto-sərgisinin açılışında səsləndirildi. Öncə həm ulu öndərin, həm də dövlət müstəqilliyimizin bərpası və torpaqlarımızın işğaldan azad edilməsi uğrunda şəhid olmuş soydaşlarımızın xatirəsi birdəqiqəlik sükutla yad edildi. Sonra əsas lövhənin və bütün fotoların önünə tər qərənfillər düzüldü. "Xalq qəzeti"nin baş redaktoru Əflatun Amaşov, Mətbuat Şurasının sədri Rəşad Məcid, şuranın Ahıl Jurnalistlər Məclisinin rəhbəri Tahir Aydınoğlu, 1993-2003-cü illərdə ümummilli liderin siyasi fəaliyyətini işıqlandırmış jurnalistlər, Nəsimi rayonundakı müxtəlif təhsil müəssisələrinin təmsilçiləri



və digər natiqlər o böyük dövlət xadiminin siyasi fəaliyyətinin ayrı-ayrı detalları barədə maraqlı xatirələr səsləndirdilər.

Onu da xatırladaq ki, nümayiş olunan fotoların bir çoxunda ulu öndərimiz sadə əmək adamlarının, elm, təhsil, mədəniyyət xadimlərinin, hərbçilərin qonağı kimi lentə alınmışdır. Daha çox maraq kəsb edən fotolar isə ümummilli liderimizin həm xarici səfərlərində, həm də Bakıda əcnəbi siyasətçi və diplomatları qəbul edərkən çəkilmiş əsərlərdir. Yeri gəlmişkən, tədbirdə çıxış edənlərdən biri dedi



ki, bu sənədlər artıq adi fotolar yox, tarixi özündə yaşadan əsərlərdir.

Təkrar edildi ki, AZƏRTAC-ın və "Xalq qəzeti" foto-müxbirlərinin, eləcə də, ayrı-ayrı müəlliflərin müxtəlif illərdə lentə aldıqları fotoların hər biri bu gün olduqca dəyərli tarixi sənədlərdir. Yüz ilin müxtəlif anlarını özündə əks etdirən həmin sənədlərdə Azərbaycanın 1969–1982-ci illərdəki inkişafı, müstəqillik yolunda atılan addımlar, ulu öndərin siyasi fəaliyyətinin Naxçıvan dövrü, 1993-cü ilin yayından sonrakı ictimai-siyasi proseslər, "Əsrin müqaviləsi"nin hazırlanması və imzalanması, beynəlxalq aləmə inteqrasiya, ordu quruculuğu, elm, təhsil, mədəniyyət və səhiyyənin inkişaf etdirilməsi məqsədilə atılan addımlar öz əksini tapmışdır.

Tamaşaçılar dörd hissədən ibarət olan sərginin birinci hissəsinin girişində ənənəvilikdən uzaq olan bir mətn-təqdimatla da tanış oldular. Orada yazılmışdı:

"Nə qədər ki, Azərbaycan var, bu müdrik xalq yaşayır, Sən də yaşayacaqsan, böyük Xilaskar!

Sən milyonlarla soydaşına müstəqil, qüdrətli Azərbaycan dövləti yaratmağın yolunu göstərmisən, biz – milyonlarla qədirbilən insan isə sənin əməllərinin hələ yüz illər boyu yaşamasını təmin edirik və edəcəyik.

Sənin işləyib hazırladığın siyasi strategiya bizə azad yaşamağı da öyrətdi, düşmən tapdağında qalmış ərazilərimizi işğaldan azad etməyi də. Sənin qarşısında diz çökdüyün müqəddəs Azərbaycan Bayrağını biz Ali Baş Komandanımızın rəhbərliyi ilə Şuşada, Ağdamda, Kəlbəcərdə, Laçında, Füzulidə, Suqovuşanda – işğaldan azad edilmiş bütün ərazilərimizdə qaldırdıq. Azərbaycan əsgərinin Xankəndiyə doğru atdığı addımların səsi də eşidilməkdədir.

Sən tariximizə qızıl hərflərlə yazılan Horadiz əməliyyatına imza atdın, övladların isə İkinci Qarabağ müharibəsindəki möhtəşəm Zəfərə.

Sən təkcə o yerlərə qayıtmağımızı arzulamırdın, həm də o yerləri şəxsən görmək istəyirdin. İndi səni Baba adlandıran çoxminli nəvələrin həmin ərazilərə qayıdışın sevincini yaşayırlar. Cəbrayılın Cocuq Mərcanlı kəndindən başlanmış Böyük Qayıdışın hər mərhələsində öncə sənin ruhun anılır, xatırlanır, ehtiramla yad edilir.

Sən bizə dünyaya çıxmağın yollarını göstərdin, biz isə dünyanın əksər ölkələrini Azərbaycanın dostuna çevirməyi bacardıq. Sən "Əsrin müqaviləsi"nə nail oldun, biz isə Avrasiyanın ən möhtəşəm iqtisadi layihələrinin icrasına.

Bütün bunları ona görə xatırladırıq ki, sənin qüdrətin dağlar qədər böyük idisə, bizim o möhtəşəm xidmətə olan sədaqətimiz də ondan az deyil.

Bu gün sənin yüz yaşını qeyd edirik, amma yaşayacağın yüzilliklər hələ öndədir!"

***İttifaq MİRZƏBƏYLİ,***
***(Fotolar: Səbuhi MƏMMƏDOV və Elşən AĞALAR),***
***"Xalq qəzeti"***

# Şahin Mustafayev Həştərxanda

**Mayın 8-də Azərbaycanın Baş nazirinin müavini Şahin Mustafayevin rəhbərlik etdiyi nümayəndə heyəti Həştərxan şəhərindəki Heydər Əliyev adına 11 nömrəli orta ümumtəhsil məktəbində olub.**



Nazirlər Kabinetindən aldığımız məlumatda bildirilir ki, qonaqlar fotosərgi ilə tanış olub, onlara məktəb haqqında məlumat verilib. Baş nazirin müavini Şahin Mustafayev qeyd edib ki, Heydər Əliyev hər zaman təhsil sahəsinə böyük diqqət yetirib.

Daha sonra Azərbaycanın ümummilli lideri Heydər Əliyevin həyat yolu və onun adını daşıyan məktəbin fəaliyyəti barədə videoçarx nümayiş olunub.

Sonda ümummilli lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş müsabiqənin qalibləri olmuş məktəblilərin beş nominasiyada mükafatlandırılması olub.

***

Mayın 8-də Azərbaycan Respublikasının Baş nazirinin müavini Şahin Mustafayevin rəhbərlik etdiyi nümayəndə heyətinin Rusiya Federasiyasının Həştərxan vilayətinin qubernatoru İqor Babuşkin və rəhbər şəxsləri ilə görüşü olub.

İqor Babuşkin bu il vilayətdə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr edilmiş xatirə tədbirlərinin keçirildiyini bildirib. "Mən Həştərxan vilayətində belə tədbirlərin təşkili məsələləri ilə bağlı xahişlə Prezident İlham Əliyevə müraciət etdim və onun dəstəyini aldım. Cari ilin əvvəlindən başlayaraq Həştərxan vilayətində Heydər Əliyevin 100 illiyinə həsr olunmuş müxtəlif konfranslar, dəyirmi masalar, televiziya verilişləri və müsabiqələr keçirilir. Yaxın günlərdə konsertlər, gənclər forumu və bir sıra digər maraqlı tədbirlər təşkil olunacaq. Bütün bunlar sözsüz ki, bizim necə səmimi və dostluq münasibətlərinə malik olduğumuzu növbəti dəfə sübut edir.

Azərbaycanın Baş nazirinin müavini Şahin Mustafayev vurğulayıb ki, səfərin əsas məqsədi ulu öndər Heydər Əliyevin 100 illiyinə həsr olunan xatirə tədbirlərində iştirak etməkdir. O, Azərbaycan Prezidenti İlham Əliyevin və Baş nazir Əli Əsədovun salamlarını çatdırıb, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin nurlu xatirəsinə göstərdikləri səmimi münasibətə görə həştərxanlılara təşəkkürünü bildirib.

Baş nazirin müavini İkinci Dünya müharibəsində Qələbədə Azərbaycanın rolundan danışıb.

Heydər Əliyevin Azərbaycan üçün mürəkkəb dövrdə onun inkişaf proqramını qurduğunu deyən Həştərxan vilayətinin sabiq qubernatoru Aleksandr Jilkin qeyd edib: "Biz Heydər Əliyev sayəsində Azərbaycanın inkişafının şahidləriyik. Qeyd etmək istəyirəm ki, Prezident İlham Əliyev Heydər Əliyevin siyasətini uğurla davam etdirir. Gənc yaşlarımda Heydər Əlirza oğlu ilə görüşmək mənə nəsib olub. Həştərxan regionu ilə qarşılıqlı fəaliyyət siyasətinə görə Azərbaycan hökumətinə və Prezident İlham Əliyevə minnətdarlığımı bildirirəm".

Azərbaycan Baş nazirinin müavini görüşdən sonra rusiyalı jurnalistlərin suallarını cavablandırıb.

**"Xalq qəzeti"**

# Sahib Ələkbərov: Ötən il Həştərxanla Azərbaycan arasında ticarət dövriyyəsi 4 dəfədən çox artıb

**Bu gün dünyanın bir çox ölkələrində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş silsilə tədbirlər keçirilir. Bizim böyük nümayəndə heyəti ilə Həştərxana gəlməyimizin məqsədi də burada keçirilən həmin tədbirlərdə iştirak etməkdir.**



Bunu jurnalistlərə açıqlamasında iqtisadiyyat nazirinin müavini Sahib Ələkbərov deyib.

Ötən il ərzində Həştərxan vilayəti ilə Azərbaycan arasında ticarət dövriyyəsinin 4 dəfədən çox artdığını deyən nazir müavini bildirib: "Əlbəttə, müsbət rəqəmlər baxımından yanaşanda bu rəqəm o qədər də adekvat deyil. Amma hər halda biz artım tempini saxlasaq, gələcəkdə mütləq rəqəmlərdə ciddi nəticələr olar. Həmçinin turizm sahəsinin inkişafı üçün bizdə yaxşı əsaslar var".

Azərbaycan ilə Həştərxan arasında həftədə beş dəfə reyslərin həyata keçirildiyini qeyd edən S.Ələkbərov deyib ki, bu, gedib-gəlmək istəyənlərin sayının çox olduğunu göstərir və onların sayı gündən-günə artır. "Yəni, burada potensial kifayət qədər yüksəkdir, xüsusilə logistika sahəsində biz çox böyük nəticələr əldə edə bilərik. Azərbaycanda istehsal olunan kənd təsərrüfatı mallarının Həştərxan vasitəsilə Rusiyanın digər bölgələrinə çatdırılması da qarşıda duran məsələlərdəndir", - deyə nazir müavini vurğulayıb.

Həştərxanda ulu öndər Heydər Əliyevə münasibətin çox yaxşı olduğunu vurğulayan Sahib Ələkbərov deyib: "Hamı ümummilli lideri tanıyır, çünki o, Moskvada işlədiyi müddətdə, SSRİ Nazirlər Sovetinin sədrinin birinci müavini vəzifəsində çalışarkən özünü Rusiya əhalisinə kifayət qədər yaxşı tanıda bilib. Rusiyanın bütün vilayətlərində onu tanımayan insan yoxdur. Burada Heydər Əliyevə böyük məhəbbət hiss etdik. Hansı tədbirlərdə iştirak edirdiksə görürdük ki, insanlar onun haqqında danışanda gözlərində qığılcım yaranır. Heydər Əliyevi nəinki tanıyırlar, onu həm sevirlər, həm də böyük hörmət bəsləyirlər".

**"Xalq qəzeti"**

# Naxçıvan ulu öndəri ehtiramla yad edir

**Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası Naxçıvanda yaşayan şəhid və qazi ailələrinə, sağlamlıq imkanları məhdud və aztəminatlı 2 min 200 ailəyə ərzaq yardımı edib.**



Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfliyə məlumat verilib ki, Naxçıvan şəhərində və muxtar respublikanın rayonlarında yaşayan aztəminatlı ailələr üçün verilən bağlamalar müxtəlif zəruri ərzaq məhsullarından ibarətdir.



AHİK-in sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev açıqlamasında bildirib ki, 2022-ci ildən bugünədək Naxçıvanda 7 mindən artıq vətəndaşa ərzaq yardımı göstərilib. Ümumilikdə isə ölkə üzrə 75 min ailəyə ərzaq yardımı edilib, 100 mindən çox insana maliyyə dəstəyi göstərilib.

Sonra ərzaq məhsulları ilə yüklənmiş 6 avtomobil təyinatı üzrə ünvanlara yola salınıb.

*

**Ulu öndər Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Naxçıvan və Türkiyə alpinistlərinin muxtar respublikanın məşhur zirvəsi Haçadağa ekstremal yürüşü təşkil olunub.**

Naxçıvan Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, 11-i yerli idman federasiyalarının, 23-ü isə "İğdır Gənclik və Spor Dağcılık", "İğdır Dağcılık və Bisiklet Spor", "Kars Dağcılık ve Arama Kurtarma" klublarının üzvləri olmaqla, 34 alpinist dəniz səviyyəsindən 24 min 15 metr yüksəklikdə olan təbiət abidəsinin zirvəsinə qalxıb.

Yürüşün son nöqtəsində Azərbaycan Respublikası və Türkiyə Cümhuriyyətinin Dövlət himnləri səsləndirilib.

*

**AMEA Naxçıvan Bölməsində ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə "Ümummilli lider Heydər Əliyevin həyatı və fəaliyyəti xalqa və Vətənə xidmət nümunəsidir" mövzusunda elmi konfrans keçirilib.**

Konfransda bölmənin sədri, akademik İsmayıl Hacıyev çıxış edərək ulu öndərin zəngin və şərəfli həyat yolu, bənzərsiz siyasi və dövlətçilik fəaliyyəti haqqında məlumat verib. Sonra Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun baş direktoru, AMEA-nın müxbir üzvü Hacıfəxrəddin Səfərlinin "Azərbaycanın inkişafında dönüş mərhələsi (1969-1982-ci illər)", institutun şöbə müdirləri, AMEA-nın müxbir üzvü Vəli Baxşəliyevin "Ulu öndər Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin qurucusudur", tarix elmləri doktoru, dosent Emin Şıxəliyevin "Ümummilli lider Heydər Əliyevin ermənilərin Azərbaycana ərazi iddialarına qarşı mübarizəsi" və tarix üzrə fəlsəfə doktoru, dosent Asəf Orucovun "Ulu öndər Heydər Əliyev və Azərbaycanın xarici siyasəti" mövzularında çıxışları dinlənilib.

Çıxışlarda ümummilli lider Heydər Əliyevin mənalı ömür yolu və ictimai-siyasi fəaliyyətindən, həmçinin Naxçıvana rəhbərliyi dövründə həyata keçirilən tədbirlərdən geniş söhbət açılıb.

*

**Xəbər verdiyimiz kimi, ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi münasibətilə Bakıda və Ankarada yerləşən diplomatik korpusun nümayəndələri – 80-dək ölkənin 140 diplomatı və hərbi attaşesi ulu öndərin doğulduğu torpağı ziyarət edib, onun xatirəsini ehtiramla anıblar.**

Səfər iştirakçısı olan Türk Dövlətləri Təşkilatının baş katibinin müavini Yerjan Mukaş qəzetimiz üçün açıqlamasında bildirib:

– Heydər Əliyevin yüzillik yubileyinə həsr olunmuş tədbirdə iştirak etmək üçün buradayam. Naxçıvanda olmağıma çox şadam. Bu ziyarət rəmzidir, çünki təşkilatımız 2009-cu ildə ilk sammit zamanı Naxçıvanda yaranıb. Mənim üçün ikiqat şərəfdir, çünki mən Qazaxıstanın Azərbaycandakı səfirliyində də çalışmışam. Azərbaycan xalqını ümummilli lider Heydər Əliyevin yüzillik yubileyi münasibətilə təbrik edirəm. Heydər Əliyev təkcə Azərbaycanın deyil, bütün türk dünyasının dahi şəxsiyyəti idi. O, türk dünyası arasında körpü rolunu oynayırdı.

**Səbuhi HƏSƏNOV,**
**"Xalq qəzeti"**



# Ümummilli liderin media siyasəti

**Mayın 8-də Medianın İnkişafı Agentliyinin və Audiovizual Şuranın birgə təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Ümummilli lider Heydər Əliyevin media siyasəti və müasir Azərbaycan mediası" mövzusunda konfrans keçirilib.**



Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov ümummilli lider Heydər Əliyevin medianın işini, jurnalist əməyini daim yüksək qiymətləndirdiyini, jurnalist peşəsinə hər zaman dərin hörmət bəslədiyini, mətbuat işçiləri ilə yaxın təmasda olduğunu bildirib, daim jurnalistlərin problemləri ilə maraqlandığını və köməyini heç zaman əsirgəməyini vurğulayıb.

Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov diqqətə çatdırıb ki, ulu öndər Heydər Əliyevin 1993-cü ildə milli etimad əsasında - xalqın iradəsi ilə hakimiyyətə gəlməsindən sonra bütün istiqamətlərdə olduğu kimi, media sahəsində də islahat xarakterli məqsədyönlü tədbirlər həyata keçirilib, bu istiqamətdə əsaslı, müsbət dəyişikliklər baş verib.

Sonra "Ümummilli lider Heydər Əliyev və Azərbaycan mediası" adlı videoçarx nümayiş olunub.

"Ümummilli lider Heydər Əliyevin media siyasəti və müasir Azərbaycan mediası" mövzusunda keçirilən panel sessiyada Mətbuat Şurasının sədri Rəşad Məcid, Milli Məclisin deputatı Hikmət Babaoğlu, Audiovizual Şuranın üzvü Telli Pənahqızı, "Xalq qəzeti"nin baş redaktoru Əflatun Amaşov bildiriblər ki, ümummilli liderin tərəfindən mətbuat orqanlarının azad fəaliyyətinə yaradılan şərait, qanunvericilik bazasının təkmilləşdirilməsi istiqamətində görülən tədbirlər ölkədə fikir plüralizminin genişləndirilməsinə, söz və fikir azadlığının qorunması sahəsində əsaslı irəliləyişlərə şərait yaradıb.

**Q.QASIMOV, "Xalq qəzeti"**

# Xoş xatirələrdə yaşayan lider

**Bu günlər ölkəmizdə ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyi böyük təntənə ilə qeyd edilir. Təbii ki, ulu öndər Azərbaycan və xalqımız qarşısında böyük xidmətlər göstərib. Onları sadalamaqla qurtara bilmərik. Odur ki, bir şahidi olduğumuz hadisələr haqqında söz açа bilərik.**

Heydər Əliyev keçən əsrin 90-cı illərində ölkədəki hərc-mərcliyin, ictimai-siyasi və hərbi xaosun qarşısını almaqla yanaşı, həm də Azərbaycanın daxili və xarici siyasətinin prioritetlərini dəqiq və aydın müəyyənləşdirdi. O illərdə respublikamızın qarşısında duran əsas vəzifələrdən biri Azərbaycanın mənafeyini dünya miqyasında müdafiə edə bilən düzgün xarici siyasətin yeridilməsi idi. Dövlət müstəqilliyini təmin etmək, dünya dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı faydalı əlaqələr yaratmaq və inkişaf etdirmək, Azərbaycanın beynəlxalq mövqelərini möhkəmləndirmək, ölkə iqtisadiyyatını, elmini, mədəniyyətini inkişaf etdirmək üçün dövlət müstəqilliyinin yaratdığı imkanlardan səmərəli istifadə etmək tələb olunurdu.

Xalqın təkidli tələblərindən sonra ikinci dəfə ölkəyə rəhbərliyə başlamış ulu öndər Heydər Əliyev bu böyük və eyni zamanda, şərəfli vəzifələrin məsuliyyətini öz üzərinə götürdü. Prezident Heydər Əliyev ölkədə sosial-iqtisadi inkişafa nail olunması, Ermənistanın təcavüzünün dayandırılaraq atəşkəs əldə edilməsi sahəsində gərəkli addımlar atdı. Sonrakı illərdə onun apardığı siyasət müstəqilliyin qorunub saxlanması, inkişaf etdirilməsinə, bütün sahələrdə milli maraqların qorunmasına xidmət etdi.

Ümummilli lider Heydər Əliyevin daxili və xarici siyasəti sonrakı illərdə Prezident İlham Əliyev tərəfindən uğurla və yaradıcı yanaşma ilə davam etdirildi. Sonda isə bütün bunlar ölkəmizin beynəlxalq imicinin yüksəldilməsi, müstəqillik və suverenleyimizin möhkəmləndirilməsi, sosial-iqtisadi uğurlarımızın artması və nəhayət, 44 günlük müharibədə torpaqlarımızın işğaldan azad olunması, ərazi bütövlüyümüzün təmin olunması ilə nəticələndi.

Bunlar xalqımızın böyük oğlu Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərliyinin şəksiz uğurlarıdır. Onun hakimiyyətinin birinci dövrü – 1969-1982-ci illər də Azərbaycanın tarixində inkişaf dövrü kimi qalıb. Bu illərdə Azərbaycan SSRİ miqyasında geridə qalmış aqrar ölkədən qabaqcıl sənaye ölkəsinə çevrildi. Xalqımız hərtərəfli inkişafa nail oldu. Yeni texnologiyalar, elektronika, maşınqayırma, cihazqayırma, kimya sənayesi intişar tapdı. Heydər Əliyevin SSRİ rəhbərliyi qarşısında qoyduğu tələblərin yerinə yetirilməsinin nəticəsi olaraq Azərbaycan böyük bir tikinti meydanına çevrildi. Yeni fabriklər, zavodlar, sosial və infrastruktur obyektləri tikilib istifadəyə verildi. Ölkədə təhsilin, səhiyyənin inkişafı qayğısına qalındı.

Ulu öndərin Azərbaycanda təhsilin inkişafı üçün gördüyü nəhəng işlər haqqında da danışmaya bilmərəm. Heydər Əliyev hakimiyyətinin həm birinci, həm də ikinci dövründə milli təhsilə böyük qayğı göstərib. Bir çox ali məktəblər məhz o illərdə genişləndirilib, bütün ölkə boyu yeni orta məktəblərin tikintisi vüsət alıb. Müəllim kadrların yüksək səviyyədə hazırlanmasına diqqət artırılıb. Təhsil sahəsində neqativ hallara qarşı mübarizəyə respublika rəhbəri Heydər Əliyev şəxsən özü nəzarət edib.

O zaman azərbaycanlı tələbələrin SSRİ-nin müxtəlif şəhərlərinə, əsasən də Moskva, Leninqrad (indiki Sankt-Peterburq), Kiyev və Minskə göndərilməsi məsələsi barədə isə ayrıca danışmaq lazımdır. Böyük siyasətçi Heydər Əliyev bunu Azərbaycanın gələcəyi üçün edirdi. Bu gənclər, bir tərəfdən, dünyanın nüfuzlu ali təhsil ocaqlarında elmlərin sirlərinə daha dərindən yiyələnir, digər tərəfdən, ayrı-ayrı xalqların mədəniyyətləri ilə də tanış olaraq dünyagörüşlərini zənginləşdirirdilər. Sonradan onlar Azərbaycana qayıtdıqda çalışdıqları sahələrin bacarıqlı mütəxəssisləri olurdular. Ulu öndər onların taleyi ilə həm təhsil aldıqları, həm də işlədikləri dövrdə yaxından maraqlanır və irəli çəkilmələrinə şərait yaradırdı.

**Sədaqət VƏLİYEVA,**
**Azərbaycan Dövlət Pedaqoji Kollecinin müəllimi**

# XİN Ermənistanda qurama "məhkəmə prosesi"ni qınayır

Akademik Yusif Məmmədəliyevin rəhbərliyi altında aviasiya benzini alınmasının yeni texnologiyası yaradılmışdı. Neftçilərimizin fədakar əməyi sayəsində Azərbaycan tarixində neft hasilatı üzrə rekord göstərici əldə edilmiş, 1941-ci ildə 23,5 milyon ton "qara qızıl" çıxarılmışdı. Bu, keçmiş ittifaqda çıxarılan bütün neftin 71,4 faizini təşkil edirdi.

Azərbaycan xalqının faşizmə qarşı şanlı savaşda göstərdiyi qəhrəmanlıq nümunələri haqqında çoxlu sayda şeirlər, kitablar yazılmış, bədii və sənədli filmlər çəkilmiş, qəhrəmanların şərəfinə abidələr ucaldılmış və onların adları əbədiləşdirilmişdir.

Ulu öndər Heydər Əliyev 1941-1945-ci il müharibəsi veteranlarının xidmətlərini çox yüksək qiymətləndirir, onların hər cür qayğıya və hörmətə layiq olduqlarını vurğulayırdı.

Ümummilli liderin bu siyasi kursu onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirlir. Ölkəmizdə faşizm üzərində müharibə veteranlarına yüksək diqqət və qayğı ilə yanaşılır, onların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində ardıcıl addımlar atılır.

Sonda fəxrlə qeyd edək ki, Azərbaycan xalqı 2020-ci ilin payızında Ali Baş Komandan, Prezident İlham Əliyevin liderliyi ilə erməni faşistlərini doğma Qarabağdan qovaraq 44 günlük şanlı savaşda tarixi Zəfər qazanmışdır.

Bu gün hər birimiz böyük qürurla deyirik: Sən azadsan, Şuşa! Qarabağ Azərbaycandır! Bu parlaq qələbəni bizə bəxş edən şəhidlərimizin müqəddəs ruhu qarşısında baş əyir, qazilərimizə cansağlığı diləyirik.

***M.HACIXANLI, "Xalq qəzeti"***

# Gəncədə 200 sərv ağacı əkildi...

**Şəhər icra hakimiyyəti başçısının tapşırığına uyğun olaraq, Mənzil-Kommunal Təsərrüfatı İstehsalat Birliyi (MKTİB) ulu öndər Heydər Əliyevin və görkəmli alim-oftolmoloq, akademik Zərifə xanım Əliyevanın 100 illik yubileyləri münasibətilə ağacəkmə aksiyası keçirib.**

Azərbaycan Bayrağı küçəsində təşkil edilən aksiyada Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, aparatın məsul işçiləri, mənzil- kommunal təsərrüfatı istehsalat birliyinin əməkdaşları iştirak ediblər. Burada yerli iqlim şəraitinə uyğunlaşdırılmış 200 sərv ağacı əkilib, onlara xüsusi aqrotexniki qulluq göstərilib, suvarılması təmin edilib. Qeyd edək ki, əkilən ağac tingləri MKTİB-nin yaşıllaşdırma şöbəsinin gülçülük sahəsində yetişdirilib.

Eyni zamanda, həmin əraziyə gülçülük sahəsində becərilən mövsümü gül kolları də əkilib.



***Hamlet QASIMOV,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***

# Qardaş ölkə seçkilərə hazırlaşır

## 14 maya beş gün qalır

**Mayın 14-də qardaş Türkiyədə ümumi seçkilər, eyni vaxtda həm prezident, həm də parlament seçkiləri keçiriləcək. Bu mühüm siyasi kampaniya ilə əlaqədər ölkənin ictimai-siyasi həyatı özünün olduqca gərgin bir dönəmini yaşayır. Bu, taleyüklü seçimlərdir.**



Seçkilərin nəticələri ölkənin taleyinə ciddi dəyişikliklər gətirə bilər. Əlbəttə, hər kəs bunun fərqindədir. Bu gün Türkiyə, belə demək mümkünsə, seçki ab-havası ilə nəfəs alıb yaşayır. Hər yerdə – küçə, park və meydanlarda, iş yerlərində, nəqliyyatda hamı bu barədə danışır, mövqeyini ortaya qoyur.

Şübhəsiz, bu günlər ərzində seçkilər prosesi ölkə mediasının da əsas mövzusudur. Belə ki, prezidentliyə namizədlərin seçicilər ilə tez-tez baş tutan görüşləri hər dəfə mətbu nəşrlərdə ciddi müzakirə olunur. Bu zaman ən müxtəlif mülahizələr və proqnozlar səsləndirilir.

Məlum olduğu kimi, Türkiyədə prezidentliyə dörd siyasətçinin namizədliyi qeydə alınıb. Bunlar hazırkı dövlət başçısı, 2002-ci ildən iqtidarda olan Ədalət və İnkişaf Partiyasının (AKP) qurucusu və rəhbəri olan Rəcəb Tayyib Ərdoğan, ana müxalifət hesab olunan Cümhuriyyət Xalq Partiyasının (CHP) başçısı Kamal Kılıçdaroğlu, “Məmləkət” Partiyasının sədri Məhərrəm İncə və ATA ittifaqının namizədi Sinan Oğandır. Əsas mübarizə AKP və CHP liderləri arasında gedir. Digər iki namizədin şansları o qədər yüksək qiymətləndirilmir.

Yeri gəlmişkən, bu il Türkiyədə əvvəlki illərdən fərqli olaraq, müxalifət partiyaları “Altılı masa” adlandırılan “Millət İttifaqı” blokunda birləşiblər. Bu ittifaqın lideri Qərbyönlü siyasətçi sayılan Kamal Kılıçdaroğludur. AKP və təcrübəli siyasətçi Dövlət Baxçalının başçılıq etdiyi Millətçi Hərəkat Partiyası (MHP) bir neçə iqtidaryönlü siyasi təşkilat ilə birlikdə “Cümhur İttifaqı”nda bir araya gəliblər. Həmin seçki blokuna Prezident Rəcəb Tayyib Ərdoğan rəhbərlik edir.

Budəfəki seçkilər təkcə Türkiyənin deyil, regionun, bütövlükdə türkdilli dövlətlərin taleyi üçün mühüm əhəmiyyət kəsb edir. Qərb siyasətçiləri və xarici KİV-lər seçkilərə hazırlıq prosesini və onun mümkün nəticələrini ciddi müzakirə edirlər. Təəssüf ki, bir çox əcnəbi mətbu nəşrlərin Türkiyədə seçkilərə təsir etmək niyyətləri aşkar hiss olunur ki, bu, yolverilməzdir.

Bu günlərdə ölkənin müxtəlif şəhərlərində prezidentliyə namizədlərin seçicilərlə görüşləri keçirilir. Son bazar günü “Cümhur İttifaqı”nın lideri R.T.Ərdoğan İstanbulda yüz minlərlə tərəfdarı qarşısında parlaq nitq söyləyib. Bildirib ki, son iyirmi ildə ölkədə bütün istiqamətlərdə uğurlu işlər görülüb, lakin qarşıda bundan da böyük vəzifələr durur. Vurğulayıb ki, Türkiyə gələcəkdə özünün milli maraqlarına uyğun daxili və xarici siyasət həyata keçirmək əzmindədir.

Digər siyasətçi, CHP lideri Kamal Kılıçdaroğlu isə seçicilərlə görüşlərdə əhalinin sosial və maliyyə problemlərindən bəhs edir və başçılıq etdiyi “Millət İttifaqı” blokunun seçkiləri udacağı təqdirdə insanların rifahını yaxşılaşdıracağını vəd edir. O, eyni zamanda, Türkiyənin Avropa İttifaqı, NATO ilə əlaqələrini gücləndirmək niyyətindədir.

“Məmləkət” Partiyasının lideri Məhərrəm İncə və ATA İttifaqından prezidentliyə namizəd Sinan Oğan sağ mühafizəkar mövqeləri ilə seçilirlər. Yeri gəlmişkən, S.Oğan Azərbaycan əsilli siyasətçidir. O, seçicilərlə görüşlərində qeyd edir ki, hazırda Türkiyədə 13 milyon suriyalı, əfqan və digər xarici ölkə vətəndaşları yaşayır. S.Oğanın fikrincə, onları mütləq öz ölkələrinə geri göndərmək lazımdır. Çünki Türkiyədə həyatın bahalılığının bir səbəbi də məhz budur.

S.Oğan dünən bu barədə yerli mətbuata verdiyi növbəti müsabibəsində deyib: “Türkiyə həmin əcnəbilərə indiyə qədər 150 milyard dollar pul xərcləyib. Bu, həm də Türkiyə üçün demoqrafik bir təhdiddir. Biz ölkədəki ədalət sistemini də inkişaf etdirəcəyik. Türkiyənin adil bir ölkə olması üçün çalışacağıq. Həmçinin, xarici siyasətdə türk dünyasına üstünlük verəcəyik”.

Bəli, mayın 14-də Türkiyədə səsvermə hüququ olan 64 milyon vətəndaş bu və digər namizədin lehinə səs verəcək. Yeri gəlmişkən, ölkədən kənarda yaşayan və səsvermə hüququ olan 3,6 milyon vətəndaş üçün səsvermə proseduru aprelin 29-dan başlayıb. Onlardan iki milyona yaxın insanın öz seçimini etdiyi bildirilir.

Səsvermə Avropanın Albaniya, Belarus, Belçika, Bosniya və Herseqovina, Bolqarıstan, Çex Respublikası, Estoniya, Finlandiya, İrlandiya, İtaliya, Kosova, Litva, İspaniya və s. ölkələrdə başa çatıb. Lakin Avstriya, Danimarka, Fransa, Almaniya və Lüksemburqda səsvermə bazar günü axşama qədər davam edib. Böyük Britaniyada isə Türkiyə vətəndaşları üçün London, Mançester, Edinburq və Lester şəhərlərində səsvermə məntəqələri təşkil olunub.

ABŞ-dakı Türkiyə vətəndaşları isə paytaxt Vaşinqton, Nyu-York, Boston, Hyuston, Mayami, Los -Anceles şəhərlərində səs veriblər. Burada səsvermə mayın 7-də başa çatıb. Xarici ölkələrdə yaşayan Türkiyə vətəndaşlarının səsvermədə iştiraklarının nəticələri mayın 14-də ölkədəki seçkilərin nəticələri ilə bərabər elan olunacaq.

*Məsaim ABDULLAYEV, “Xalq qəzeti”*

### Ekspert rəyi



**Mübariz MƏMMƏDLİ, filologiya üzrə fəlsəfə doktoru, politoloq**

Sirr deyil ki, Türkiyədə baş verən bütün siyasi proseslər, ölkədə gedən geniş iqtisadi dəyişikliklər, inkişaf qanunauyğunluqları dünyanın nəzər-diqqətindədir. Qardaş ölkədə dövlətin qüdrətinin və xalqın rifah halının yaxşılaşması Azərbaycan üçün də çox mühüm əhəmiyyət kəsb edən faktordur. Strateji partnyorluq və “bir millət, iki dövlət” prinsipindən çıxış edən ölkələrimiz üçün başqa bir status-kvo təsəvvür etmək də olmaz.

Azərbaycan Prezidenti İlham Əliyevin TEXNOFEST sərgisində bu prinsipi xatırladan zaman iki ölkənin müxtəlif fors-major situasiyalarda, həm də vahid yumruq nümayiş etdirə biləcəyi də çox şeydən xəbər verir. Bölgədə baş verən hər hansı proses bu gün mütləq şəkildə Türkiyədən və Azərbaycandan yan keçmir. Bu baxımdan mayın 14-də Türkiyədə keçiriləcək seçkilər Azərbaycan cəmiyyətinin diqqət mərkəzindədir.

Əminliklə deyə bilərik ki, ictimai-siyasi baxışlarından asılı olmayaraq, ölkəmizin hər bir vətəndaşı qardaş ölkənin çiçəklənməsinə yönəlmiş inkişaf xəttinin davam etdirilməsinə ümidlidir. Təkcə fevral ayında baş verən dağıdıcı zəlzələnin ilkin fəsadlarının aradan qaldırılmasında Azərbaycanın əvvəldən axıradək Türkiyənin yanında olması qardaş ölkədə baş verən istənilən hadisəyə Azərbaycanın biganə qala bilməməsindən xəbər verir.

Bəllidir ki, hər bir vətəndaşımız bu məsələdə qardaş ölkəyə öz dəstəyini əsirgəmədi. Bu mənada Türkiyədəki seçkilərin nəticələri hər iki dövlət üçün həyati əhəmiyyətə malikdir. Dünyada yaranan siyasi böhran fonunda seçkilər həm Türkiyə, həm Azərbaycan, həm də gələcək dünya nizamı üçün çox mühüm əhəmiyyət kəsb edir. Əslində dəyişən maraqlar dünyasında böyük türk dünyasının səsinin ucalmasında güclənən Türkiyənin rolu böyükdür.

Gələcəkdə yüksək tribunalardan nəinki Türkiyənin və Azərbaycanın, eləcə də digər türk dövlətlərinin sözünü demək üçün ölkələrimizin güclənməsi vacibdir. Təsadüfi deyil ki, həm regional məsələlərin həllində, həm də beynəlxalq problemlərin nizamlanmasında bu gün siyasi güc, hərbi qüdrət beynəlxalq hüququ üstələyib. Bu baxımdan bütün türk dövlətləri üçün güclü bir dostun, tərəfdaşın olması çox önəmlidir.

Əmin olmaq istərdik ki, keçirilən seçkilərin nəticələrinə görə Türkiyə daha güclü, daha sabit olacaq və qəbul edəcəyi qərarlarda milli iradənin əsas götürülməsi qarşıdakı illərdə təkcə Türkiyənin deyil, eyni zamanda bütün Türk dünyasının taleyini müəyyən edəcək çox mühüm amil olacaq. Deyə bilərik ki, Türkiyənin mövcud daxili və xarici siyasətinin davam etməsi, əlbəttə ki, Türk dünyasının xeyrinə və faydasına xidmət edəcək. Bütün Azərbaycan vətəndaşları qarşıdakı seçkilərdə qardaş türk xalqına böyük uğurlar əldə etməyi arzulayırlar.

**Türkiyənin son 20 ildə xarici iqtisadi əlaqələri ən yüksək səviyyəyə yüksəlib, beynəlxalq ticarət əməkdaşlığında uğurlu göstəricilər əldə edilib. Qardaş ölkənin xarici ticarət dövriyyəsi 500 milyard dollara çatdırılıb. Respublikamızın da Türkiyə ilə iqtisadi münasibətləri xeyli dərinləşib. Dövlət Gömrük Komitəsinin məlumatına əsasən, təkcə cari ilin yanvar-fevral aylarında Azərbaycanın xarici ticarət dövriyyəsinin 12,5 faizi Türkiyə ilə aparılmış ticarət əməliyyatlarının payına düşüb. İxracın 12,3 faizini qardaş ölkəyə göndərilmiş məhsulların dəyəri təşkil edib.**

# Türkiyənin xarici ticarət dövriyyəsi 500 milyard dollara yüksəlib

## Bu ölkədə Azərbaycan sərmayəli 2 minə yaxın şirkət fəaliyyət göstərir

Türkiyə Statistika Təşkilatının məlumatına görə, ötən il ixrac 2021-ci illə müqayisədə 12,9 faiz artaraq 254,2 milyard dollar, idxal isə 34 faiz artaraq 363,7 milyard dollar təşkil edib. Hesabat dövründə Türkiyənin ixracatında birinci yeri Almaniya tutub. Bu ölkəyə ixrac 21,1 milyard dollar olub. Siyahıda Almaniyanın ardınca 16,9 milyard dollarla ABŞ, 13,8 milyard dollarla İraq, 13,1 milyard dollarla Böyük Britaniya və 12,4 milyard dollarla İtaliya gəlib. İlk 5 ölkəyə ixrac ümumi ixracın 30,4 faizini təşkil edib.



Onu da xatırladaq ki, cari ilin ilk iki ayı ərzində Azərbaycanın Türkiyəyə qeyri-neft ixracı 78,7 faiz artaraq 273,9 milyon ABŞ dolları təşkil edib. Yalnız fevral ayında qardaş ölkəyə ixracın dəyəri 2 dəfə artaraq 167,2 milyon ABŞ dolları səviyyəsinə çatıb. Adıçəkilən ixrac dəyərinin əhəmiyyətli artımının əsas göstəricisi elektrik enerjisi ilə əlaqədardır.

Türkiyənin türk dövlətləri ilə 2021-ci ildə 4 milyard 661 milyon dollarlıq ticarət dövriyyəsi ötən il 5 milyard 842 milyon dolları dək yüksəlib. Keçən il Qazaxıstanla qardaş ölkə arasında ticarət dövriyyəsi 6 milyard dollar olub, onun 10 milyard dollara çatdırılması barədə razılıq əldə edilib.

Asiyanın ikinci böyük türk dövləti olan Özbəkistanın Türkiyə ilə qarşılıqlı ticarətinin həcmi 2022-ci ildə 3 milyard 233 milyon dollar təşkil edib. Türkmənistanla isə ticarətin dəyəri 926,3 milyon dollara yüksəlib.

Türkmənistan isə Türkiyə ilə qarşılıqlı ticarət dövriyyəsini 21,9 faiz artırmaqla 2021-ci ildəki 1,7 milyard dollardan ötən il 2 milyard 67 milyon dollara çatdırıb.

Türkiyə ilə Qırğızıstan arasında ticarət dövriyyəsinin həcmi keçən il 1,5 milyard dollara yaxın olub. Qırğızıstana ümumi xarici investisiya qoyuluşunun 67 faizi Türkiyənin payına düşüb.

Beləliklə, son illərdə türk dövlətləri arasında qarşılıqlı iqtisadi-ticari əlaqələrin sürətlə dərinləşməsi müşahidə olunub. “Türk Dövlətləri Təşkilatının hökumətləri arasında sadələşdirilmiş gömrük dəhlizinin yaradılması haqqında” və “Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin hökumətləri arasında beynəlxalq kombinə edilmiş yük daşımaları haqqında” sazişlər bu prosesin daha da sürətlənməsinə, türk dövlətlərinin dünyanın ən mühüm ticarət yolunun sahibinə çevrilməsinə təkan verib.

Türkiyə iqtisadi dirçəlişin ilk illərində xarici ticarət üzərində dövlət nəzarətini azaldaraq tədricən iqtisadi tənzimləmə yolu ilə müxtəlif bazarlar açıb və xalqa məxsus müxtəlif qurumları özəlləşdirməyə başlayıb. Dövlət borcunun ÜDM-ə nisbəti 2010-cu ilin üçüncü yarısında 46 faizə yüksəlib. Həmin ərəfədə illik ÜDM artım tempi orta hesabla 6,8 faiz müəyyənləşib. Bu rəqəm Türkiyəni ən sürətli böyüyən iqtisadiyyatlardan birinə çevirib.

Türkiyə Azərbaycan iqtisadiyyatına ən çox investisiya yatıran dövlət kimi tanınıb. 1995-2021-ci illər ərzində qardaş ölkədən respublikamıza cəlb edilən birbaşa investisiyaların həcmi 13,3 milyard ABŞ dolları (10,4 milyard ABŞ dolları neft sektoru, 2,9 milyard ABŞ dolları qeyri-neft sektoru) təşkil edib. Türk şirkətlərinin fəaliyyəti enerji, sənaye, telekommunikasiya, bank və sığorta, inşaat, nəqliyyat, qida, yüngül sənaye (tekstil), səhiyyə kimi sahələrdə daha çox diqqət çəkib.

Azərbaycan da Türkiyə iqtisadiyyatına ən çox investisiya yatıran ölkələrdən biridir və son zamanlar bu investisiyalarda mühüm artım müşahidə olunur. Belə ki, hazırda Türkiyədə Azərbaycan sərmayəli 2 minə yaxın şirkət fəaliyyət göstərir.

Xatırladaq ki, 1995-2021-ci illər ərzində Azərbaycandan Türkiyəyə yatırılan birbaşa investisiyaların həcmi 20,3 milyard ABŞ dollarına (17,1 milyard ABŞ dolları neft-kimya sektoru, 3,2 milyard ABŞ dolları qeyri-neft sektoru) çatıb. Sadəcə SOCAR-ın 2018-ci ilin sentyabr ayında 6,3 milyard dollar kapitalla Türkiyənin İzmir şəhərinin Əliağa rayonunda “Petkim” neft-kimya kompleksinin ərazisində inşasını tamamlayaraq istifadəyə verdiyi “Star” neft emalı zavodu Türkiyəyə birdəfəlik yatırılan ən böyük investisiya kimi qeydə alınıb. Ümumilikdə, Türkiyədə investisiya qoyan azərbaycanlı iş adamları həm firma sayı, həm də investisiya həcmi baxımından Mərkəzi Asiya və Qafqaz ölkələri arasında ilk yerdə qərarlaşıb.

*V.BAYRAMOV, “Xalq qəzeti”*

# Rusiya-Ukrayna müharibəsi: hər iki tərəf kritik vəziyyət qarşısında

**Rusiya-Ukrayna cəbhəsində olduqca gərgin vəziyyət hökm sürür. Rusiya uzun müddətdən bəri Baxmut uğrunda əzablı döyüşlər aparsa da, hələ nəinki heç nəyə nail ola bilməyib, hətta “Vaqner” rəhbəri Yevgeni Priqojin mayın 4-də silah çatmazlığı səbəbindən yüzlərlə əsgərinin məhv edildiyini bəyan edib. O, eyni zamanda, Rusiyanın hərbi rəhbərliyini onu lazımınca təchiz etməməkdə, ümumiyyətlə, müharibənin taleyinə məsuliyyətsiz yanaşmaqda ittiham edib.**

Ukrayna isə hələ gözlənilən səs-küylü əks-hücuma başlamayıb. Bununla belə, Kiyev rəsmiləri kifayət qədər müasir silahlar əldə etdiklərini, həmin silahlarla davranmaq üçün lazımi əsgəri hazırlıqları həyata keçirdiklərini bildiriblər.

Beynəlxalq müşahidəçilər isə son vaxtlarda Rusiyanın kifayət qədər zəiflədiyini, Ukraynanın isə gücləndiyini, başlanacaq əks-hücumun effektiv olacağı təqdirdə Rusiyanın danışıqlar masası arxasına oturacağını iddia edirlər.

Bununla bərabər, hər iki tərəf özünün cəbhədə üstün mövqelərdə qərarlaşdığı qənaətindədir. Rusiyanın Müdafiə Nazirliyi, faktiki olaraq, hər gün Ukraynaya ciddi zərbələr endirildiyini, qarşı tərəfin PUA-larının, tank və digər texnikalarının, yüzlərlə canlı qüvvəsinin məhv edildiyini bildirir. Ukrayna da geri qalmır. Ümumən hər iki tərəf bir-birinin məhv edilmiş canlı qüvvəsi haqqında dəhşətli rəqəmlər açıqlayır.

Rusiyanın son məlumatlarına görə, ölkənin Ukraynanın xüsusi hərbi əməliyyat zonasındakı zenit-raket komplekslərinin köməyi ilə Qara dəniz üzərində Kiyevin 22 pilotsuz uçuş aparatı və digər texniki vasitələri məhv edilib. Bundan əlavə, ötən sutka ərzində Hava Hücumundan Müdafiə vasitələri Ukraynanın HIMARS reaktiv yaylım atəşi sisteminin 5 reaktiv mərmisini, eləcə də “Qrom-2” operativ-taktiki raketini və bir ədəd “Toçka-U” taktiki raketini havada tutub. Xarkov və Zaporojye, eləcə də Donetsk və Luqansk vilayətlərində 10 ədəd pilotsuz aparat məhv edilib.

RF Müdafiə Nazirliyinin rəsmi nümayəndəsi general-mayor İqor Konaşenkov bildirib ki, Rusiya ordusunun yeni hücum əməliyyatları nəticəsində Baxmutun daha iki məhəlləsinə nəzarəti ələ keçirmək mümkün olub: “Ümumilikdə, son sutkada Donetsk istiqamətində Ukrayna Silahlı Qüvvələrinin 340 əsgəri və muzdlusu məhv edilib”.

Amma Ukrayna tərəfinin və ümumiyyətlə, müxtəlif KİV-in məlumatlarına görə, rus ordusu Ukraynada çətin durumdadır. Ukrayna Müdafiə Nazirliyi Rusiyanın Ukraynaya məxsus 22 ədəd zərbə PUA-sını vurması barədə xəbərinin də yalan olduğunu bəyan edib: “Rusiya Müdafiə Nazirliyi məlumat yayıb ki, guya ötən gecə Qara dəniz üzərində Ukraynanın 22 ədəd zərbə PUA-sı məhv edilib. Amma heç bir detal, foto və video təqdim olunmayıb”.

Ukrayna tərəfinin məlumatında o da vurğulanır ki, Rusiya uzun illər hipersəsli raket, “super silah” olan “Xəncər”i yaratması ilə öyünürdü. Bununla bağlı dünyaya cizgi filmləri göstərir, deyirdi ki, bütün HHM sistemlərini keçə bilərik. Amma “Patriot” hava hücumundan müdafiə sistemi Ukrayna səmasında “Xəncər”i də asanca vura bildi.

Ukraynalı hərbi ekspert Oleq Jdanov bu barədə deyib: “Əlvida, məğlubedilməz silah! Qərbdə, Ukraynada hər kəs “Patriot”la “Xəncər”in qarşılaşmasını gözləyirdi. Bu onu göstərdi ki, X-22, aeroballistik kimi köhnə sovet raketlərini də vura bilərik”.

Ukrayna Silahlı Qüvvələri Şərq qoşun qruplaşmasının nümayəndəsi Sergey Çerevatıy isə Priqojinin Baxmutdan çıxmaqla bağlı qərarını məsuliyyətdən yaxa qurtarmaq cəhdi kimi qiymətləndirib. Onun sözlərinə görə, “Vaqner” rəhbərinin silah çatışmazlığı barədə dedikləri bəhanədir. Çünki təkcə son sutkalarda Rusiya hərbçiləri Ukrayna mövqelərinə 520 artilleriya zərbəsi endiriblər.

S.Çerevatıy qeyd edib: “Priqojinin Baxmutdan çıxmaq qərarı onunla bağlıdır ki, artıq insan ehtiyatları tükənib. Qarşıya qoyulan vəzifə belədir ki, Ukrayna mövqelərinə aramsız hücum edilsin, ancaq onun bu qədər adamı yoxdur. Ukrayna qüvvələri “vaqnerçilər”in çoxunu məhv edib, Priqojin isə yeni qüvvələr cəlb edə bilmir”.

Bütün bunlarla bərabər, dünya Ukraynanın əks-hücumunu və onun nəticələrinin necə olacağını narahatlıqla gözləyir. Ona görə də rəsmi Kiyevə bununla bağlı müxtəlif məsləhətlər verənlər var. “Nyu York Tayms” hesab edir ki, Ukrayna əks-hücum əməliyyatlarından uduzmuş vəziyyətdə çıxmamalıdır, çıxarsa, Qərbin dəstəyini itirəcək. Qəzetin fikrincə, bu günlər Kiyev Qərb müttəfiqləri tərəfindən güclü təzyiq altındadır.

Çexiya Prezidenti Petr Pavel isə bəyan edib ki, Ukrayna əks-hücuma keçməyə tələsməməlidir, çünki onun bu il ikinci dəfə belə bir şansı olmayacaq: “Görünür, ukraynalılarda hələ də belə bir hiss var ki, əməliyyatın uğurlu başlaması üçün hər şeyə malik deyillər. Bu əks-hücum uğursuzluğa düçar olsa, Ukrayna üçün son dərəcə əlverişsiz olacaq, çünki onların ən azı bu il başqa şansları olmayacaq”.

Beləliklə, hər iki tərəf üçün olduqca çətin olan hazırkı vəziyyətdə mübarizə davam edir. Sonda tale kimin üzünə güləcək, bu sual indi bütün dünyanı düşündürür. Elə bizi də...

*Paşa ƏMİRCANOV, “Xalq qəzeti”*




## "Azpetrol"un kollektivi ulu öndər Heydər Əliyevin xatirəsini dərin hörmət və ehtiramla anır

"Azpetrol" şirkətinin baş direktoru Ceyhun Məmmədov və şirkətin kollektivi, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü münasibətilə ulu öndərin Fəxri xiyabandakı məzarını ziyarət etmiş və dahi şəxsiyyətin abidəsi önünə əklil qoymuşlar.

AZPETROL
Daim inkişafa doğru!

## BİLDİRİŞ

"Xalq Həyat" Sığorta Şirkəti ASC 2023-cü il aprelin 17-dən etibarən öz fəaliyyətini Bakı şəhəri, Nizami rayonu, Heydər Əliyev prospekti 106 A nömrəli ünvanda (poçt indeksi AZ-1029) davam etdirir. Əlaqə telefonu- (012) 310-05- 25.

## "Kəndsutəchizat" QSC səhmdarlarının nəzərinə!

23 iyun 2023-cü il saat 11.00-da cəmiyyətin inzibati binasında səhmdarların növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

**Gündəlikdəki məsələlər:**
**1.** 2022-ci ilin yekunlarına aid idarə heyətinin hesabatı.
**2.** Səhmlərin alqı-satqı məsələsinin müzakirəsi.
**3.** Digər məsələlər.

***İdarə heyəti***

## "Rabitə Tikinti " ASC səhmdarlarının nəzərinə!

23 iyun 2023-cü il saat 11.00-da cəmiyyətin inzibati binasında səhmdarların növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

**Gündəlikdəki məsələlər:**
**1.** 2022-ci ilin yekunlarına aid idarə heyətinin hesabatı.
**2.** Digər məsələlər.

***İdarə heyəti***

## "Bakı Hövsan Beynəlxalq Dəniz Limanı" ASC səhmdarlarının nəzərinə!

23 iyun 2023-cü il saat 11.00-da "Bakı Hövsan Beynəlxalq Dəniz Limanı" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı Bakı şəhəri, Suraxanı rayonu, Hövsan qəsəbəsi, Şakir Ziyadov küçəsi 1 nömrəli ünvanda inzibati binada keçiriləcəkdir.

**Gündəlikdəki məsələlər:**
**1.** "Bakı Hövsan Beynəlxalq Dəniz Limanı" ASC-nin maliyyə -təsərrüfat fəaliyyətinin 2022-ci il üzrə hesabatı.
**2.** Digər təşkilati məsələlər.

Səhmdarlar ümumi yığıncağın gündəliyinin materialları ilə iş günləri saat 10.00-dan 17.00-dək səhmdar cəmiyyətin Bakı şəhəri, Suraxanı rayonu, Şakir Ziyadov küçəsi (Hövsan qəsəbəsi) 1 nömrəli ünvanda yerləşən inzibati binada səhmdar cəmiyyəti rəhbərliyinə müraciət etməklə tanış ola bilərlər.

Yığıncaqda iştirak etmək vacibdir.

Ünvan- Bakı şəhəri, Suraxanı rayonu, (Hövsan qəsəbəsi) Şakir Ziyadov küçəsi 1.

***Direktorlar şurası***

## "Mingəçevir Nəqliyyat" ASC səhmdarlarının nəzərinə!

23 iyun 2023-cü il saat 11.00-da "Mingəçevir Nəqliyyat" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

**İclasın gündəliyi:**
**1.** Direktorun seçilməsi.

Ümumi yığıncaqda bütün səhmdarların iştirakı vacibdir.

Ümumi yığıncaqda iştirak edən səhmdar və ya nümayəndəsi şəxsiyyətini təsdiqləyən sənədin əslini (nümayəndə olduqda isə etibarnaməsinin notarial təsdiqlənmiş surətini) təqdim etməlidir.

Əlaqə telefonu- 050-390-41-66.

Ünvan- Mingəçevir şəhəri, Samux küçəsi 7.

## "Dərnəgülsənayetikinti" ASC səhmdarlarının nəzərinə!

23 iyun 2023-cü il saat 11.00-da "Dərnəgülsənayetikinti" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

İclasın gündəliyi:
1. Səhmdar cəmiyyətin idarə heyətinin 2022-ci ilin yekunları ilə bağlı maliyyə-təsərrüfat fəaliyyətinin hesabatı və 2022-ci il üzrə illik hesabatların təsdiqi.
2. Digər məsələlər.

Ümumi yığıncaqda bütün səhmdarların iştirakı vacibdir.
Əlaqə telefonu- (012) 514-35-85.
Ünvan- Bakı, Z.Bünyadov prospekti 20/61-ci məhəllə, bina E-118.

***İdarə heyəti***

## "Şirvan Mehmanxana" ASC səhmdarlarının nəzərinə!

23 iyun 2023-cü il saat 11.30-da səhmdarların növbəti illik ümumi yığıncağı Şamaxı şəhəri, 24-cü məhəllə, M. Əzizbəyov küçəsi 41 nömrəli ünvanda "ŞİRVAN" otelində keçiriləcəkdir.

**Gündəlikdəki məsələlər:**
**1.** ASC-nin 2022-ci il üzrə maliyyə - təsərrüfat fəaliyyətinin hesabatı.
**2.** Təşkilati məsələlər.

Səhmdar ümumi yığıncaqda bilavasitə özü və ya nümayəndəsi vasitəsilə etibarnamə ilə iştirak edə bilər.

Ümumi yığıncaqda iştirak edən səhmdar və ya nümayəndəsi şəxsiyyətini təsdiqləyən sənədin əslini (nümayəndə olduqda isə etibarnaməsinin notarial təsdiqlənmiş surətini) təqdim etməlidir.

## "Gənclik" Açıq Səhmdar Cəmiyyəti səhmdarlarının nəzərinə!

23 iyun 2023-cü il saat 12.00-da cəmiyyətin səhmdarlarının növbəti illik ümumi yığınacağı "Zoom" proqramı vasitəsilə onlayn rejimində keçiriləcəkdir. Bununla əlaqədar ümumi yığıncaqda iştirak etmək üçün səhmdarları "Ganjlik" onlayn qrupa daxil etmək məqsədilə 2023-cü il iyunun 22-si saat 22.00-dək adınızı, soyadınızı və atanızın adını 050- 398- 03 -13 nömrəli mobil telefona "Whatsapp " vasitəsilə göndərməyiniz xahiş olunur.

**Gündəlikdəki məsələlər:**
**1.** 2022-ci il yekunu üzrə cəmiyyətin maliyyə-təsərrüfat fəaliyyəti barədə müfəttişin hesabatı.
**2.** Sair məsələlər.

Hörmətli səhmdarlar, 2023-cü il iyunun 23-də ümumi yığıncaqda iştirak etməyinizi təsdiqləmək üçün saat 11.00-dək şəxsiyyətinizi təsdiq edən sənədin surətini 050 -398- 03-`` 13 nömrəli mobil telefona "Whatsapp" vasitəsilə göndərməyiniz tələb olunur və saat 11.30-dək (yəni iclasın başlanmasına 30 dəqiqə qalmış) "Zoom" proqramı ilə keçiriləcək ümumi yığıncağa qoşulmaq və yığıncaqda iştirak etmək üçün " Whatsapp" vasitəsilə "Ganjlik" onlayn qrupa daxil olaraq qrupun təşkilatçısı kimi "ümumi yığıncağ" ın adından paylaşdığımız linkə daxil olmalısınız.

Ümumi yığıncağın gündəliyinin materialları ilə tanışlıq üçün 2023-cü il iyunun 9-dan sonra cəmiyyətin direktoruna müraciət etmək olar.

Səhmdarların iştirakı vacibdir.
Telefon - (012) 465-84-90 .

***Direktor***

## "Olefin Elmi-Tədqiqat və İstehsalat Mərkəzi" ASC səhmdarlarının nəzərinə!

23 iyun 2023-cü il saat 11.00-da "Olefin Elmi-Tədqiqat və İstehsalat Mərkəzi" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı Bakı, Xətai rayonu, N.Rəfiyev küçəsi 29 nömrəli ünvanda müəssisənin inzibati binasında keçiriləcəkdir.

**Gündəlikdəki məsələlər:**
**1.** Müəssisənin 2022-ci ilin maliyyə-təsərrüfat fəaliyyətinin yekunlarına aid hesabat.
**2.** Digər məsələlər.

Ümumi yığıncağa bütün səhmdarlar şəxsiyyət vəsiqəsini, varisliyi təsdiq edən sənədi, etibarnamə ilə iştirak edənlər isə notarial qaydada təsdiqlənmiş etibarnaməni təqdim etməlidirlər.

Əlaqə telefonu-012-489-34-60.

## "Xətai-Tikiş-2" ASC səhmdarlarının nəzərinə!

27 iyun 2023-cü il saat 11.00-da "Xətai-Tikiş-2" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı cəmiyyətin yerləşdiyi inzibati binada keçiriləcəkdir.

**Gündəlikdəki məsələlər:**
**1.** 2022-ci ilin illik hesabatı və maliyyə hesabatlarının təsdiq edilməsi.
**2.** Cəmiyyətin seçkili orqanlarının yenidən seçilməsi.
**3.** Nizamnaməyə əlavə və dəyişikliklərin edilməsi.
**4.** Digər məsələlər.

Səhmdarlar sənədlərlə həftənin 5-ci günləri saat 10.00-dan sonra cəmiyyətin inzibati binasında tanış ola bilərlər.

Əlaqə telefonu- 055-221-21-02 .

Ünvan- Bakı şəhəri, Xətai rayonu, Ramiz Quliyev küçəsi 25.

## "EF QAZ " ASC səhmdarlarının nəzərinə!

23 iyun 2023-cü il saat 11.00-da cəmiyyətin inzibati binasında səhmdarların növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

**Gündəlikdəki məsələlər:**
**1.** 2022-ci ilin yekunlarına aid idarə heyətinin hesabatı.
**2.** Təşkilati məsələlər-
-idarə heyəti sədrinin və üzvlərinin seçilməsi,
-müşahidə şurası sədrinin və üzvlərinin seçilməsi,
-daxili auditin və müfəttişin seçilməsi.
**3.** Digər məsələlər.

***İdarə heyəti***

## "Bakı Hövsan Beynəlxalq Ticarət Dəniz Limanı" ASC səhmdarlarının nəzərinə!

23 iyun 2023-cü il saat 11.00-da "Bakı Hövsan Beynəlxalq Ticarət Dəniz Limanı" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı Bakı şəhəri, Suraxanı rayonu, Hövsan qəsəbəsi, Şakir Ziyadov küçəsi 1 nömrəli ünvanda inzibati binada keçiriləcəkdir.

**Gündəlikdəki məsələlər:**
1."Bakı Hövsan Beynəlxalq Ticarət Dəniz Limanı" ASC-nin maliyyə - təsərrüfat fəaliyyətinin 2022-ci il üzrə hesabatı.
**1.** Digər təşkilati məsələlər.

***Müşahidə şurası***

# Xalq qəzeti

Xalqın qəzeti!

№ 95 (30211) 9 may 2023-cü il, çərşənbə axşamı

veb-sayt: www.xalqqazeti.az


*Texnologiya yenilikləri*

## ASELSAN-ın yeni PUA-sı

**ASELSAN-ın formasını dəyişdirən Pilotsuz Uçuş Aparatı (PUA) uçuşa başlayıb və istehsal mərhələsinə keçid edilir.**

"Anadolu" agentliyi xəbər verir ki, ASELSAN "Forma Dəyişdirən PUA Araşdırma Layihəsi" çərçivəsində sabit və mobil platformalardakı buraxılış qurğularından atıldıqdan sonra sabit uçuş edə bilən çoxrotorlu PUA-nın prototipini hazırlayıb.

Forma dəyişdirən PUA İstanbul Atatürk Hava Limanında keçirilən TEKNOFEST sərgisində də nümayiş etdirilib.



"Forma Dəyişdirən PUA Araşdırma Layihəsi"nin iyul ayında başa çatdırılması və istehsal işlərinə başlanması planlaşdırılır.

Layihə çərçivəsində hava vasitəsi və onun buraxılış qurğusu hazırlanıb, dizayn yoxlamaları aparılıb və uğurlu uçuş sınaqları həyata keçirilib.

***Səadət RZAYEVA, "Xalq qəzeti"***

*İdman xəbərləri*

## Cüdoçularımız Parisdə 4 medal qazandılar




**Gənc cüdoçularımız Fransanın paytaxtı Parisdə keçirilən Avropa kuboku turnirində 4 medal qazanıblar.**

Cüdoçularımızdan Nizami İmranov (60 kq), Kənan Nəsibov (100 kq-dan yuxarı) qızıl, Ömər Rəcəbli (81 kq) gümüş, Aydın Rzayev (66 kq) bürünc medala sahib olublar.

Ümumilikdə 2 qızıl, 1 gümüş və 1 bürünc medal əldə edən Azərbaycan cüdoçuları oğlanlar arasında ikinci, ümumi komanda hesabında üçüncü yeri tutublar.

## Göygöl Avropa kubokunda komandamız qalib olub

**Göygöl Olimpiya İdman Kompleksində keçirilən və ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunan cüdo üzrə yeniyetmələr arasında Avropa kuboku turnirində Azərbaycan cüdoçuları uğurla çıxış ediblər. Komandamız yarışda 7 qızıl, 5 gümüş və 9 bürünc medal əldə edib.**



Azərbaycan yığması medal əyarına görə ümumi hesabda və oğlanlar arasında birinci, qızlar arasında isə ikinci yeri tutub.

*Sosial şəbəkələrdən seçmələr*

## "Kalalar vadisi"



**Tanınmış jurnalist Şəmsiyyə Kərimova özünün "Facebook" səhifəsində ana təbiətimizin qeyri-adi gözəllikləri ilə bağlı tez-tez maraqlı paylaşımlar edir. Onun bu dəfə təqdim etdiyi foto-mənzərə aşağıdakı sözlərlə müşayiət olunur:**

"Bu gözəl gülləri, heyrətamiz mənzərəni görüb çox duyğulandım. Qəlbimdən bir nida qopdu: Allah bu kalaları andı yalan, eşqi yalan, sevgisi yalan, aldığı nəfəs də yalan olanlardan qorusun! Amin! Sabahınız xeyir olsun, dostlar!"

Şəmsiyyə xanımın dostluğunda olan Nurəhməd Əliyev adlı bir sosial şəbəkə izləyicisi isə bu mənzərəyə heyran qalaraq belə bir rəy yazıb: "Necə də gözəl paylaşımdır! Böyük zövq və enerji aldım!"

Başqa təqdiredici rəylər də var. Bu gözəl məkanı "Kalalar vadisi" adlandırmağı təklif edənlərlə razılaşmamaq olmur!

Sonda hörmətli Şəmsiyyə xanıma bu gözəl paylaşıma görə bir daha təşəkkür edərək sosial şəbəkələrdəki dostlarımızı vaxtaşırı əsrarəngiz təbiətin füsunkar gözəlliklərini nümayiş etdirən rəsm və fotoları yerləşdirmələrini xahiş edərdim.

***Təqdim etdi: M.HACIXANLI, "Xalq qəzeti"***

## "Google"dan yenilik

**Texnologiya nəhəngi "Google" "passkeys" ("keçid açarları") üçün parolları ləğv edir. Qətərdə yerləşən nüfuzlu "Aljazeera" telekanalının yaydığı məlumatda deyilir ki, indi PİN kod biometrik məlumat və ya daha mürəkkəb təhlükəsizlik açarı istifadə edərək cihazda istifadəçinin şəxsiyyətini yoxlayacaq.**




Bu, parollardan xoşu gəlməyənlər üçün yaxşı xəbərdir. Belə ki, Google öz xidmətlərinə daxil olmaq üçün daha sadə və təhlükəsiz bir yol kimi "passkeys" əlavə edərək onları daha sonra düşünməyə yönəltmək üçün böyük bir addım atıb.

Xəbərdə həmçinin qeyd olunur ki, "Google" "passkeys" parollara və mətnli təsdiq kodlarına daha təhlükəsiz alternativ təklif edir. İstifadəçilər onları birbaşa görməyəcəklər. Bunun əvəzinə, "Gmail" kimi onlayn xidmət "passkeys"dən e-poçta daxil olmaq üçün telefonunuz və ya kompüteriniz kimi etibarlı cihazla birbaşa əlaqə saxlamaq üçün istifadə edəcək.

***Əfsanə ƏHƏDLİ, "Xalq qəzeti"***

## "Qarabağ" "Qəbələ"ni 3 cavabsız qolla məğlub edib



**Futbol üzrə Azərbaycan Premyer Liqasında XXXIII tura yekun vurulub. Turun sonuncu oyununda "Qarabağ" klubu "Qəbələ" ilə üz–üzə gəlib. Ağdam təmsilçiləri rəqib qapısından 3 cavabsız qol keçiriblər. Qolları 43-cü dəqiqədə Elvin Cəfərquliyev, 75-ci dəqiqədə Abdullah Zubir, 84-cü dəqiqədə isə Ramil Şeydayev vurublar.**

"Azersun Arena"da oynanılan qarşılaşmanın baş hakimi Rəvan Həmzəzadə olub. Ağdam klubu 84 xalla turnir cədvəlinin lideridir.

Qeyd edək ki, turun əvvəlki görüşlərində "Sabah" "Kəpəz"i, "Zirə" "Şamaxı"nı 3:0 hesabı ilə üstələyib. "Turan Tovuz" "Neftçi"ni (4:0), "Səbail" isə "Sumqayıt"ı (3:1) məğlub edib.

***L.QURBANOVA, "Xalq qəzeti"***

✓ **2001-ci ildə Yeni Azərbaycan Partiyasının Yasamal rayon təşkilatı tərəfindən Qüdrətov Anar Dərgah oğlunun adına verilmiş üzvlük vəsiqəsi itdiyi üçün etibarsız sayılır.**

## Heyvanları təhlükəli sınaqlardan qoruyaq

**Kosmetik vasitələrin heyvanlar üzərində sınaqdan keçirilməsi mövzusu müasir dünyada çox aktualdır. Müəyyən edilib ki, hər il dünyada 100 milyondan çox heyvan laboratoriya təcrübələrində istifadə olunur.**

Təkcə böyük Britaniyada canlı heyvanlar üzərində ildə orta hesabla 3,7 milyon sınaq proseduru həyata keçirilir. Bu testlərdə istifadə olunan məhsulların tərkibindəki zərərli maddələr üç il əvvəl 1400 heyvanın ölümünə səbəb olub.



Günümüzdə texnolologiyalar sahəsində əldə olunan irəliləyişlər nəticəsində heyvanlar üçün təhlükəsiz olan "İn vitro" adlanan vasitələrdən istifadə olunur. Bu, heyvanlara çox yüksək həssaslıqla müşayiət olunan və onlarda ölüm riskinin olub-olmadığını əvvəlcədən müəyyən edən kiçik ekrandır.

Bu xəbər bütün dünyada təbiətsevərləri çox sevindirib. Biz də öz növbəmizdə deyirik: Gəlin, canlıları təhlükəli sınaqlara məruz qoymayaq, onlara, sadəcə rəhm edək!

***Fidan HÜQUQQIZI, "Xalq qəzeti"***

## "Azərbaycan Məişət Malları" ASC səhmdarlarının nəzərinə!

30 iyun 2023-cü il saat 10.00-da "Azərbaycan Məişət Malları" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

**Gündəlikdəki məsələlər:**

**1.** "Azərbaycan Məişət Malları" ASC-nin 2022-ci il üçün maliyyə-təsərrüfat fəaliyyətinin hesabatı və gələcək perspektivləri.

**2.** Təşkilati məsələlər.

**3.** Digər məsələlər.

Telefon-050-502-88-24.

Ünvan- Sumqayıt, Azərbaycan prospekti 2.

***İdarə heyəti***

*Sağlamlıq guşəsi*

## Qaragilə çayı – təzyiqin məlhəmi

**Gündə bir stəkan qaragilədən hazırlanan içki qan təzyiqini aşağı salıb beyin funksiyasını yaxşılaşdıra bilər. Bununla bağlı tədqiqatın nəticəsinə aid məlumat "American Journal of Clinical Nutrition" jurnalında dərc olunub.**

Xarici mütəxəssislərin araşdırmalarına görə, qaragilədə olan polifenolların istehlakı damar və beyin funksiyasının yaxşılaşması ilə əlaqələndirilir. Qaragilənin sağlamlığa necə təsir etdiyini öyrənmək üçün tədqiqatçılar sınaq keçiriblər. Araşdırmaya 65–80 yaş arasında 61 sağlam kişi və qadın daxil edilib. İştirakçılar 12 həftə ərzində təxminən 178 qram təzə qaragilə ekvivalenti olan 26 qram qurudulmuş yabanı qaragilə tozundan hazırlanan içki içiblər. Nəhayət, qaragilə yeyənlərin digərlərinə nisbətən daha aşağı qan təzyiqi olduğunu görüblər. Bununla yanaşı, sınaqda iştirak edənlərin müvafiq tapşırıqlarda yaddaş və diqqətinin də artması müşahidə edilib.



Tədqiqatçılar, həmçinin qeyd ediblər ki, yabanı qaragilədə olan polifenollar yaşlı insanlarda ürək-damar xəstəlikləri riskini də azalda bilər.

***Z.HÜSEYNOVA, "Xalq qəzeti"***

## HAVA PROQNOZU

✓ ***Mayın 9-da***

✓ **Bakıda və Abşeron yarımadasında** dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gecə bəzi yelərdə qısamüddətli az yağış yağacağı ehtimalı var. Arabir güclənən şimal-qərb küləyi əsəcək, gündüz şimal-şərq küləyi ilə əvəz olunacaq. Gecə 10-15°, gündüz 17-22° isti olacaq. Atmosfer təzyiqi 759 mm civə sütunundan 763 mm civə sütununa yüksələcək, nisbi rütubət 65-75 faiz olacaq.

✓ **Naxçıvan şəhəri, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin bəzi dağlıq ərazilərdə arabir yağıntılı olacağı, ayrı-ayrı yerlərdə şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək. Gecə 9-14°, gündüz 22-27° isti olacaq.

✓ **Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Ağdam, həmçinin Daşkəsən-Gədəbəy rayonlarında** bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək Gecə 2-7°, gündüz 8-13°, bəzi yerlərdə 15-18° isti olacaq.

✓ **Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında** bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək. Gecə 2-7°, gündüz 7-12°, bəzi yerlərdə 16-18° isti olacaq.

✓ **Qazax, Gəncə, Goranboy, Tərtər, Füzuli rayonlarında** bəzi yerlərdə fasilələrlə yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək. Gecə 9-14°, gündüz 20-25° isti olacaq.

✓ **Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Mingəçevir, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında** bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək. Gecə 8-13°, gündüz 17-22° , dağlarda gecə 4-8°, gündüz 10-15° isti olacaq.

✓ **Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Şirvan, Hacıqabul, Zərdab, Salyan, Neftçala rayonlarında** bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək. Gecə 10-15°, gündüz 21-26° isti olacaq.

✓ **Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Cəlilabad rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə arabir yağış yağacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Gecə 12-15°, gündüz 20-25°, dağlarda gecə 10-12°, gündüz 15-19° isti olacaq.

*Sənət inciləri*

## Van Qoqun "Ulduzlu gecə"si

**Məşhur holland rəssamı Vinsent van Qoqun yağlı boya ilə çəkdiyi "Ulduzlu gecə" rəsm əsərini, yəqin ki, bir çoxlarınız tanıyırsınız. Rəssam dostu Qoqen arasında yaşadığı problemlərdən sonra 1889-cu ildə könüllü ü Fransanın Sen-Remo-de-Provans şəhərindəki ruhi xəstələrin müalicə edildiyi sanatoriyaya yollanır.**



Bir gün burada Van Qoq səhərədək oyaq qalır və birdən yatağından qalxaraq pəncərəyə tərəf üz tutur. Rəsm əsərində də görürük ki, o pəncərədən çölə boylanaraq sərv ağacının səmaya doğru yüksəldiyini, ayın buludların arasında gizləndiyini və ulduzların sayrışdığını seyr edib. Külək əsdikcə isə sərv ağacı dəniz kimi dalğalanırdı…

Sayrışan ulduzlar, sanki, onun düşüncələrini "işğal edirdi". O, həmin gecə ulduzları izləyərək öz hiss və düşüncələrini kətan üzərinə həkk etməyi qərara aldı. O, sabah mütləq "Ulduzlu gecə"ni çəkməli idi.

Beləliklə, dahi rəssamın ən məşhur əsərlərindən biri – "Ulduzlu gecə" yarandı. Əsər hazırda Nyu-York Müasir İncəsənət Muzeyində qorunub saxlanılır.

***Leyla HADİ, tələbə-jurnalist***


BAŞ REDAKTOR

ƏFLATUN AMAŞOV

TELEFONLAR:

Reklam və elanlar: 493-82-21

Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64

Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az

+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:

AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.

*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 5048
SİFARİŞ 1078
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ

Çapa imzalanmışdır
00:00